# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 150 yaşlı milli mətbuatımız




5


SƏS

№ 126 (7294)

19 iyul 2025-ci il.
Qiyməti 60 qəpik


# Ağdam və Xocalı – inkişafın və tərəqqinin yeni ünvanı!




2

# Ermənistan həm ŞƏT-ə, həm də Aİ-yə daxil olmağa hazırlaşır



4

## Azərbaycançılıq xalqımızın milli sərvətidir



11

## Bakıdan Naxçıvana avtobus reysləri yenidən bərpa olunur



16

## Gün çıxandan gün batanadək



12

## Masallıda qonaq ev sahibinin qızıllarını oğurlayıb



16

## Suriyanın "druz" problemi



13

# Ağdam və Xocalı – inkişafın və tərəqqinin yeni ünvanı!










***Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad olunan, yenidən qurulan ərazilərə köçlər davam edir. Yenidən çiçəklənən ərazilərimiz doğma sakinlərini qarşılayır. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə hər bir səfəri tarixi hadisələrlə yadda qalır. Böyük Qayıdışımız uğurla yerinə yetirilir. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. İnsanların doğma yerlərdən səsləri eşidilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur.***

Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Ağdam və Xocalıda da abadlıq-quruculuq meydanına çevrilib. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda etibarlı tərəfdaşlarından birinə çevrilib. İşğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işələri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

### 650-DƏN ARTIQ DAİMİ İŞ YERİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tabaterra" MMC-nin Ağdam Sənaye Parkındakı tütün məmulatlarının istehsalı müəssisəsinin açılışında iştirak edib. Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli Fərmanına əsasən, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam rayonunda 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Parkın yaradılmasından məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir. Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Bunun nəticəsidir ki, Ağdam Sənaye Parkı rezidentlərinin sayına görə ölkəmizdə mövcud sənaye zonaları arasında Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci sənaye parkıdır. Parkda ümumi investisiyalarının həcmi 270 milyon manatdan çox olan 30 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 121 milyon manatdan çox investisiya yatırılıb, 650-dən artıq daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir.

### MÜASİR, İNNOVASİYALARA ƏSASLANAN TƏHSİL OCAQLARI

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərimiz dağıdılmış, tarixi dini mədəniyyət ocaqlarımız xarabazarlığa çevrilmişdir. İşğal altında yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalareyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib. Bu gün 30 ilə yaxın işğal altında olan torpaqlarımızda abadlıq-quruculuq işləri vüsət alıb. Hazırda qarşıda dayanan ən mühüm vəzifələrdən biri də işğaldan azad olunan ərazilərdə təhsil ocaqlarının tikintisidir. İşğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dövlətinin Qarabağda və Şərqi Zəngəzurda həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının qurulmasına xüsusi diqqət ayrılır.

Dövlət başçımız Ağdama səfəri çərçivəsində 960 şagird yerlik Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının açılışında iştirak edib. Bu təhsil ocağının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Bu ilin fevralında isə dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva burada aparılan tikinti işləri ilə tanış olublar.

Məktəbin binası "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində inşa edilib.

Binada 43 sinif, 16 inzibati otaq, 7 otaqdan ibarət STEAM adlandırılan elm, texnologiya, mühəndislik, sənət və riyaziyyat mərkəzi, müasir texnoloji avadanlıqla təchiz edilmiş fizika, kimya və biologiya laboratoriyaları, informatika və çağırışaqədərki hazırlıq otaqları, kitabxana, muzey, 352 yerlik yeməkxana fəaliyyət göstərəcək. Bundan başqa, məktəbdə müxtəlif tədbirlərin keçirilməsi üçün 468 yerlik akt zalı və iki qapalı idman zalı, açıq havada futbol və basketbol meydançaları da müəllim və şagirdlərin ixtiyarına verilib.

Bu gün Qarabağda təhsil sahəsində müasir tələblərə cavab verən maddi-texniki bazanın yaradılması ən önəmli məsələlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərimizdə hazırda təhsil infrastrukturunun bərpası və bu sahənin inkişafı istiqamətində çox mühüm işlər görülür. İstifadəyə verilən Ağdam şəhər 1 nömrəli tam orta məktəb bunun daha bir nümunəsidir.

*Ardı Səh. 3*










Əvvəli-Səh-2

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Ağdam şəhərində 160 yerlik 1 nömrəli körpələr evi-uşaq bağçasının açılışında da iştirak edib. Bu binanın da inşası "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində həyata keçirilib. Körpələr evi-uşaq bağçası binasının inşasına ötən ilin fevralında başlanılıb.

## TARİXİ MƏSCİD BƏRPADAN SONRA

Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun layihələri sırasında "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib. Dini ocaqlarımız işğaldan azad olunmuş torpaqlarımızda da bərpa təmir olunur. Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı. "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb. Şuşada Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışı, eləcə də Saatlı məscidinin açılışı dini abidələrimizə Heydər Əliyev Fondu tərəfindən ayrılan diqqətdir. Dini ocaqlara olan münasibət Azərbaycanın bugünkü həqiqətlərinin təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Ağdam rayonunun Qiyaslı kəndindəki tarixi məscidin binasının bərpadan sonra açılışında iştirak edib. 2021-ci il mayın 28-də Prezident İlham Əliyev Ağdama səfəri çərçivəsində Qiyaslı məscidində olub.

Qeyd edək ki, Qiyaslı məscidi də Qarabağda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrimizdən idi. Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı mal-qara tövləsi kimi istifadə edilən məscid binası ciddi dağıntılara məruz qalıb, dam örtüyü və günbəzlər tamamilə dağıdılıb.

Ağdam rayonu erməni işğalından azad edildikdən sonra 2022-ci ildən Qiyaslı məscidində bərpa işlərinə başlanılıb. Məscidin bərpası işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. Bərpa layihəsi hazırlanarkən məscidin ilkin görkəmini qorumaq məqsədilə arxiv materiallarından və videoqrafik mənbələrdən istifadə olunub. İnteryerində mühafizə olunmuş burma pilləkən məscidin cənub tərəfində qoşa minarələrin mövcud olduğunu göstərirdi.

## XOCALIDA YENİ HƏYAT

İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Azərbaycan tarixi ədaləti bərpa edib və günahsız Xocalı qurbanlarının qisası döyüş meydanında alınıb. Artıq bu gün Xocalının qapısı üzümüzə açıqdır. Azərbaycan əzəli torpaqlarına sahibdir. Xocalıda ədalətin təntənəsi yaşanılır, yeni bir dövrün başlanğıcı. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq. Xocalı yenidən qurulur. Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoymuşdu. Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq. Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsində əhəmiyyətlidir.

Artıq Xocalının gələcək inkişafı ilə bağlı Baş planı da hazırlanıb. Baş Plana əsasən, ilk mərhələdə 12 min nəfərlik şəhər planlaşdırılır. Eyni zamanda, ehtiyat üçün də ərazilər saxlanılır. Xocalı bir regional mərkəz kimi davamlı surətdə inkişaf etməlidir. Burada həm bütün zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq, ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar, təbiətlə daim təmasa imkan verən rekreasiya əraziləri demək olar ki, bütün şəhər boyu, yaşıl məkanlarla əlaqələndirilmiş komfortlu yaşayış əraziləri nəzərdə tutulub. Əsasən 3-5 mərtəbəli yaşayış binaları, həyətyanı sahələrə malik fərdi evlər.

Şəhər mühitini canlandıran yeni nəqliyyat qovşağı vacib rol oynayacaq, mobilliyi artıracaq. Bu, həmçinin şəhərdə iqtisadiyyatın, sahibkarlığın inkişafına da xüsusi təkan verəcək. Xocalının Baş planını hazırlayarkən ilk növbədə, onun regiondakı mövqe də nəzərə alınıb. Bura strateji mövqeyə malikdir. Beynəlxalq hava limanı, respublika əhəmiyyətli avtomobil yolu, hazırda layihələndirilən, tezliklə çəkiləcək dəmir yolu və s. bütün bunlar Xocalının gələcəyini artıq bir qovşaq kimi, nəqliyyat qovşağı və logistika mərkəzi kimi şərtləndirir.

## 28 AİLƏ - 125 NƏFƏR YAŞAMAQ ÜÇÜN KƏNDƏ QAYIDIB

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalının Təzəbinə kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub. Kənddə 2025-ci ilin sonunadək ümumilikdə 197 fərdi ev hazır olacaq. Gələn il isə daha 159 fərdi evin təmir-tikintisi yekunlaşacaq. 2025-ci il iyulun 14-də 28 ailə - 125 nəfər yaşamaq üçün kəndə qayıdıb.

Hazırda kəndin müasir sosial infrastrukturunun qurulması istiqamətində işlər davam edir.

## SƏNAYELƏŞMƏ SİYASƏTİ SİSTEMLİ VƏ ARDICIL ŞƏKİLDƏ APARILIR

Xocalı kərpic zavodunun açılışı da görülən işlərin davamıdır. Bu istehsal müəssisəsi rayonun Daşbulaq kəndində inşa olunub. Layihə dəyəri 8,5 milyon manat olan müəssisədə 60 nəfər daimi işlə təmin edilib. İşçilərin əksəriyyəti işğaldan azad edilmiş rayonların sakinləridir. Gələcəkdə zavodda iş yerlərinin sayının 120-yə çatdırılması nəzərdə tutulur.

Müəssisənin illik istehsal gücü 16,2 milyon ədəd kərpic təşkil edir. Zavodda müasir alman və Türkiyə texnologiyaları, eyni zamanda, enerji səmərəliliyinə və ətraf mühitin qorunmasına yönəlmiş texnologiyalar tətbiq olunur.

## XANYURDUDA 2026-CI İLDƏ 93 FƏRDİ EV TƏMİR VƏ BƏRPA OLUNACAQ

Prezident İlham Əliyev eyni zamanda, Xocalıya səfəri çərçivəsində Xanyurdu kəndində olub. Qeyd edək ki, Xanyurdu kəndi Xocalı rayonunun Ballıca kənd inzibati ərazi dairəsinə daxildir. Kənddə 40 fərdi ev artıq əsaslı bərpa olunub, ilin sonunadək daha 65 fərdi evin bərpası nəzərdə tutulub, 2026-cı ildə isə 93 fərdi ev təmir və bərpa olunacaq. Bu il iyulun 14-də 33 ailə, ümumilikdə 122 nəfər doğma Xanyurdu kəndinə qayıdıb.

Hazırda kəndin sosial infrastrukturunun müasir səviyyədə qurulması üçün zəruri işlər görülür. 14 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti təmir-bərpa edilib, sayğaclaşdırma prosesinə başlanılıb, 10 kilometrdən çox uzunluğu olan təbii qaz xətti çəkilib, 4 kilometr uzunluğunda mövcud xətt bərpa olunub, artezian quyusu, həcmi 400 kubmetr olan su anbarı və içməli su şəbəkəsi təmir edilib, 10,4 kilometr uzunluğunda rabitə xətti çəkilib, abonentlərin stasionar telefon, internet və İPTV xidmətləri ilə əhatə edilməsi təmin olunub. İki kilometrdən çox uzunluğu olan kənddaxili yollar asfaltlanıb. Ümumtəhsil müəssisəsinin binasının təmir-bərpası ilə bağlı hazırlıq işləri görülür, ambulatoriya mərkəzi və market üçün nəzərdə tutulan bina əsaslı təmir edilir. Kənddə bir hektar sahədə istirahət parkı salınıb.

Bu gün Azərbaycan vətəndaşı hər bir qarış torpağının sahibidir, hər yerdə yaşayır, yaşayacaq. Sürətli bərpa işləri onu göstərir ki, tezliklə bütün keçmiş köçkünlər öz torpaqlarına qayıdacaqlar. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Biz bundan sonra ancaq və ancaq qalib xalq kimi yaşayacağıq, bu torpaqlarda əbədi yaşayacağıq və xoşbəxt yaşayacağıq".

***Zümrüd BAYRAMOVA***

***Ermənistan hakimiyyəti respublikanın Avropa İttifaqına və Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) inteqrasiyasına ümid edir və hələ də KTMT-dən çıxmaqla hədələyir. Bunu respublikanın baş naziri Nikol Paşinyan geniş mətbuat konfransı zamanı deyib. Eyni zamanda, onun fikrincə, belə xarici siyasət Rusiya ilə qarşıdurmaya gətirib çıxarmır. Əksinə, Moskva ilə İrəvan arasında münasibətlər əvvəlkindən daha yaxşı olmalıdır. "Biz ŞƏT-ə üzv olmaq üçün müraciət etmişik. Bu, balanslaşdırılmış xarici siyasətimizin məntiqinə uyğundur", - hökumət başçısı vurğulayıb.***



# Ermənistan həm ŞƏT-ə, həm də Aİ-yə daxil olmağa hazırlaşır





O, Ermənistanın artıq bu təşkilatda müşahidəçi statusuna malik olduğunu da xatırladıb. Paşinyanın sözlərinə görə, hazırda ŞƏT substantiv və struktur dəyişiklikləri müzakirə edir, bu müddət ərzində bu mövqe ləğv oluna bilər. Bu baxımdan İrəvan gələcək inteqrasiya yolu ilə getmək niyyətindədir. ”Lakin biz balanslaşdırılmış xarici siyasətimizi davam etdiririk”, - Baş nazir qeyd edib.

Bu barədə ilk dəfə iyulun 3-də məlumat verilib.”Şanxay Əməkdaşlıq Təşkilatının fundamental prinsiplərini, yəni ərazi bütövlüyü, güc tətbiq etməmək və sərhədlərin toxunulmazlığını bölüşən Ermənistan ŞƏT-ə üzv olmaq arzusunu ifadə edib”, - deyə ölkənin Xarici İşlər Nazirliyi məlumat yayıb. Ermənistan təşkilatın 11-ci üzvü ola bilər. İndiyədək onun tərkibinə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Tacikistan, Özbəkistan, Pakistan, Hindistan, İran və Belarus daxildir.

Bundan əlavə, Paşinyan ümid edir ki, 20 ildən sonra Ermənistan Avropa İttifaqında olacaq. ”Brüsselə səfərimiz zamanı bizdən Aİ-yə üzv olmaq istəyib-istəmədiyimizi soruşdular və mən belə cavab verdim: ”Bəli, istəyirik”. O, bunun mütləq uğurla bitməyəcəyi çətin proses olduğunu etiraf edib. Amma respublika Avropa ailəsinin bir hissəsi ola bilməsə belə, onu Aİ üzvləri ilə eyni səviyyəyə gətirəcək islahatlar aparacaq.



”KTMT-dən çıxmaq və ya çıxmamaq məsələsinə gəlincə. Deyim ki, çox güman ki, Ermənistan KTMT-dən çıxacaq və bu, iştirakını donduracaq”, Paşinyan davam edib. Onun sözlərinə görə, buna “Azərbaycan-Ermənistan müharibəsi zamanı təşkilatın fəaliyyətsizliyi” səbəb olub. ”2022-ci ilin sentyabr-oktyabr aylarında baş verən məlum hadisələr zamanı isə rəsmi və qeyri-rəsmi şəkildə KTMT-yə müraciət edəndə gözlənilməz reaksiya aldıq. Bizə dedilər ki, sərhədlər aydın deyil, bura Ermənistanın ərazisidir, ya yox, bəlli deyil. Belə olan halda sual yaranır: bu qırmızı xətt haradandır? Biz təşkilatla bütün problemlərimiz buradan başlayıb ki, bütün ərazilərimizi tanımadıq. Biz öz ərazi bütövlüyümüzü tanıyırıqmı və məlum oldu ki, biz 2022-ci il oktyabrın 6-da Ermənistan Respublikasının ərazi bütövlüyünü tanımışam. Lakin bu o demək deyil ki, İrəvan Rusiya ilə münasibətləri pozmağa hazırlaşır, hökumət başçısı əmin edib.

”Rusiya ilə münasibətlərimiz transformasiya mərhələsindədir. Fikrimcə, onlar artıq əvvəlki kimi olmayacaq, lakin bu, o demək deyil ki, onlar pis olmalıdır, yox, yaxşı olmalıdır, əvvəlkindən qat-qat yaxşı olmalıdır”, - Paşinyan bildirib. Ermənistanda Rusiya telekanallarının yayımının dayandırılması bu strategiyanın tərkib hissəsidir. ”Mənim mövqeyim belədir: biz Rusiya ilə yaxşı, mehriban, qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmaq istəyirik... Bəzi Rusiya telekanalları bütün sərhədləri keçiblər, amma... Mən Rusiya ilə ziddiyyətlər və münaqişəli vəziyyətlər axtarmırıq, belə bir qərar verməyə məcbur olmaq istəməzdim. Mənim Rusiya prezidenti ilə hörmətli, açıq, şəffaf və dürüst münasibətlərim olub... və mən belə bir qərar qəbul etmək istəmirəm, amma məndə belə bir təəssürat var ki, Rusiyada bizi belə bir qərar verməyə məcbur etmək istəyən qüvvələr var”.

Qafqaz İnstitutunun rəhbəri Aleksandr İskəndəryan isə izah edib ki, Paşinyan Ermənistanın ənənəvi beynəlxalq əlaqələri diversifikasiya siyasətinə sadiqdir. ”Çin və Hindistan İrəvanın müəyyən əməkdaşlıq formatı inkişaf etdirdiyi ŞƏT-in üzvləridir və onlarla eyni klubda olmaq yaxşı olardı. Ona görə də bu təşkilata qoşulmaq tamamilə haqlı addımdır. Avropa İttifaqına inteqrasiyaya gəlincə, bu, daxili siyasi hekayədir. Ermənistan inteqrasiya meyarlarına cavab vermir və bu mövzuda Brüsseldə də SCO-ya üzvlüklə bağlı danışıqlara başlamır. Avropa dəyərləri bir-birinə qarışmır”, - İskəndəryan bildirib. Rusiya-Ermənistan münasibətləri böhran içindədir, lakin Paşinyan sübut etməyə çalışır ki, onun başqa ölkələrlə əlaqələri Moskvanı təhdid etmir. Ekspert hesab edir ki, bu, çətin ki, bütün çətinlikləri aradan qaldırsın, lakin Ermənistan Rusiya ilə əlaqələri kəsmək istəmir. ”KTMT-dən çıxmaq buna heç bir təsir göstərmir. Praktikada Ermənistan artıq bu təşkilatın üzvü deyil, hərbi blokun tədbirlərində iştirak etmir və onu maliyyələşdirmir. “Məsələnin formal tərəfinə gəlincə, çətin ki, yaxın gələcəkdə həll yolu tapılsın”, - İskəndəryan yekunlaşdırıb.

***V.VƏLİYEV***

# 150 yaşlı milli mətbuatımız

***1875-ci ilin 22 iyul tarixi Azərbaycanın ictimai-mədəni həyatında daha bir təqvim olaraq tarixə qovuşdu. Belə bir tarixi dövrdə milli mətbuatın təməlini qoymaq böyük ziyalılıq, vətənpərvərlik tələb edirdi: iki ali dəyəri özündə birləşdirən Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas-alim Həsən bəy Zərdabi əsrlərə qovuşacaq bir yeniliyə, ilkə imza atmış oldu. Milli mətbuatımızın təməlini qoyan "Əkinçi" qəzetinin ilk nömrəsi nəşr olundu və bu ölkə həyatında böyük əks-səda doğurdu. Artıq həmin tarixdən bizi 150 illik bir zaman ayırır. Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" məlum Sərəncamına əsasən milli mətbuatımızın 150 illik yubileyi ölkəmizdə geniş qeyd olunmaqdadır.***




XIX əsrin ikinci yarısında dünyanın neft və sənaye mərkəzlərindən birinə çevrilmiş və iqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycanın ictimai-siyasi və mədəni həyatında əsaslı dəyişikliklər baş vermiş, maarifçilik hərəkatı genişlənməyə başlamış, milli mətbuatın yaranması zərurəti meydana çıxmışdı. Məhz buna görə də 150 il əvvəl –təbiətşünas alim və maarifçi-publisist Həsən bəy Zərdabinin Azərbaycan dilində nəşr etdirdiyi "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Cəmi iki il fəaliyyət göstərən qəzet maarifçi ideyaların carçısı olmuş, cəhalətə və xurafata qarşı kəskin məqalələr dərc etmiş, milli özünüdərkin, ictimai, siyasi və bədii fikrin inkişafına, mütərəqqi jurnalist nəslinin yetişməsinə önəmli töhfə vermişdir.

Əlbəttə ki, hünər, cəsarət tələb edən bir zamanda təqibləri gözünə almayan ziyalının görkəmli simalar məsləkdaşı, silahdaşı oldu. Bu adlar sırasında imzası Azərbaycan ictimai-mədəni mühitinə yaxşı tanış olan insanlar - Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov kimi simalar var idi. Dövrünün görkəmli maarifçiləri olan bu və ya digər şəxsiyyətlər "Əkinçi" qəzetinin səhifələrində maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai-siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər. Azərbaycan publisisti, pedaqoq, maarifçi-demokrat, təbiətşünas alim Zərdabi bütün həyatını xalqının maariflənməsinə, onun elmi biliklərə yiyələnməsinə həsr etmişdir. O, Xeyriyyə Cəmiyyəti, teatr və müəllimlik yolu ilə xidmət etdiyi xalqa daha çox xidmət etmənin yollarını axtarır və bunu qəzetin nəşrində görürdü. Məlum olduğu kimi, qəzetin cəmi 56 sayı işıq üzü gördü və qəzet ayda iki dəfə 300-400 tirajla nəşr edildi. Cəmi 2 il fəaliyyət göstərsə də, xalqımızın mədəniyyət tarixində böyük ad qoyan "Əkinçi" qəzeti Azərbaycan tarixinə yazılan şərəfli səhifələrdən biridir.

## ANADİLLİ MİLLİ MƏTBUAT

"Əkinçi"dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamışlar.

1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan nəşr edilmişdi. Çox keçmir ki, 1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə "Ziyayi-Qafqaziyyə" qəzetini çıxarmağa nail olur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə, o, çapını dayandırır. 1883-1891-ci illərdə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən "Kəşkül" qəzeti və jurnalı işıq üzü görür. XX əsrdə isə, Azərbaycan dilində çıxan qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olmuşdu. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri danılmazdır. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı.

"Həyat", "Füyuzat", "Dəbistan", "İrşad", "Molla Nəsrəddin", "Tərəqqi", "Həqiqət", "Məktəb", "Açıq söz" kimi onlarla qəzet və jurnal ötən əsrin əvvəllərində anadilli mətbuatımızın sonrakı tarixini yaratdılar. 1896-cı ildən Həsən bəyin fəal iştirakı və kürəkəni Əlimərdan bəy Topçubaşovun redaktorluğu ilə nəşr olunan rusdilli "Kaspi" qəzeti də mövzu və məfkurə baxımından Zərdabi istəklərinin daşıyıcısına çevrildi.

Azərbaycan mətbuatının xronoloji ardıcıllığına nəzər salsaq görərik ki, 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1921-ci ildə "Maarif" və "Qırmızı günəş", 1923-cü ildə "Gənc pioner", 1927-ci ildə "Pioner" jurnalları, "Azərbaycan pioneri" qəzeti və s. mətbuat orqanları nəşr edilir. 1923-cü il ildə Bakıda Şərq qadınlarının, xüsusilə, Azərbaycan qadınlarını ictimai-siyasi həyata alışdırmaq məqsədilə aylıq, ədəbi, ictimai və siyasi jurnal olan "Şərq qadını" nəşr olunub. 1938-ci ildən "Şərq qadını", "Azərbaycan qadını" adı ilə nəşr olunmağa başlayıb. 1934-cü il sentyabrın 2-də "Kommunist maarifi" qəzeti nəşrə başladı. 1938-ci ildə adı dəyişdirilərək, "Müəllim qəzeti" adlandırıldı. Sonrakı illərdə "Ədəbiyyat", "Azərbaycan pioneri", "Kirpi" jurnalı, "Bakı" və s. qəzetləri meydana gəldi.

## MÜSTƏQİLLİK DÖVRÜNÜN MƏTBUATI

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində, gerçəkləşdi. Ulu Öndər Heydər Əliyevin milli mətbuata olan münasibəti və qayğısı nəticəsində formalaşma və inkişaf prosesində bir sıra təbii və süni maneələrlə üzləşmiş azad, demokratik mətbuatımız cəmiyyətin operativ, obyektiv informasiyaya tələbatını cavablandırmağa nail oldu. "Jurnalistlərin dostu" adını qazanmış Ulu Öndər Heydər Əliyev, ölkəmiz müharibə şəraitində yaşasa da, böyük cəsarətlə əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

Bu gün hərtərəfli inkişaf edən Azərbaycanın inkişaf dinamikası milli informasiya resurslarından da yan keçməyib, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırıb və rəqabət qabiliyyətini yüksəldib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev söz və mətbuat azadlığının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Dövlət başçısı İlham Əliyevin səyləri ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onların borcları ləğv edilib. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə, "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətdir. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə, təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından, mühüm əhəmiyyət kəsb etmiş oldu.

Əgər bu gün mətbuata göstərilən yüksək diqqət və qayğıdan söz açırıqsa, jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan vəsatin ayrılmasını da qeyd etməliyik. Dövlət başçısının "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" 2010-cu il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün yaşayış binasının tikilməsi dövlətimizin yüksək diqqət və qayğısının əyani təsdiqidir. Jurnalistlər üçün 156 mənzildən ibarət 17 mərtəbəli bina inşa olundu. Daha sonra dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna maliyyə vəsaitinin ayrılması nəticəsində 255 mənzilli ikinci bir bina da istifadəyə verildi. Bütün bunların nəticəsidir ki, Prezident İlham Əliyev 2017-ci ildə də "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.

## "SÖZ AZADLIĞI HƏR BİR ÖLKƏ ÜÇÜN, ÖLKƏNİN İNKİŞAFI ÜÇÜN ƏN VACİB OLAN MƏSƏLƏLƏRDƏN BİRİDİR"

Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafı, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Bu Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist əməyinə verdiyi yüksək qiymətin göstəricisidir. Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır. "Bütövlükdə, söz azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir", - deyən Cənab İlham Əliyev bu sahədə ölkəmizin çox böyük və uğurlu yol keçdiyini bildirib. Bunu təsdiqləyən kifayət qədər faktlar mövcuddur. Belə ki, bu gün Azərbaycanda yüzlərlə media orqanı fəaliyyət göstərir. Yüzlərlə qəzetin nəşri vasitəsilə dünyada gedən bütün proseslər sərbəst şəkildə diqqətə çatdırılır.

Azərbaycan dövləti tərəfindən hər zaman azad söz, azad mətbuat problemlərini həlli istiqamətində addımlar atılır. Azərbaycan Respublikasında medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə Dövlət başçısının Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı. Bu gün informasiya mühiti gündən-günə modernləşir, qabaqcıl texnologiyalar həyatımıza daxil olur. Belə bir zamanda mətbuatımızın qarşısında cəmiyyəti daha obyektiv, daha peşəkarlıqla məlumatlandırmaq kimi məsuliyyətli vəzifə dayanır.

Bu gün dünyanın sürətlə inkişaf edən ölkələri sırasında yeri olan Azərbaycanın uğurlarının dünyaya çatdırılmasında milli mətbuatın rolu əvəzsizdir.

Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq ələqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda, media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İkitərəfli münasibətlərə yeni təkan




## Liderlərin müzakirəsində Orta Dəhliz və onun bir seqmenti Transxəzər

Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezident İlham Əliyevin dəvəti ilə qızı Oğulcahan Atabayevanın müşayiəti ilə iyulun 16-da Bakıya ikigünlük səfərə gəlib. İki ölkə liderləri arasında danışıqların əsas mövzusu enerji əməkdaşlığının inkişafı, o cümlədən Türkmənistanın infrastrukturunu Azərbaycandan keçən Cənub Qaz Dəhlizi (CQD) ilə birləşdirəcək, İran və Rusiyadan keçən marşrutlardan asılılığı aradan qaldıracaq Transxəzər qaz kəmərinin tikintisi perspektivlərinin müzakirəsi olub. Aşqabadın Xəzərin dibi ilə boru kəmərinin tikintisini maliyyələşdirmək üçün siyasi qərar qəbul edəcəyi gözlənilir.

Türkmənistanlı həmkarı ilə görüşən Azərbaycan dövlətinin başçısı ona “əziz qardaş” deyə müraciət edərək, səfərin əsas məqsədini - ikitərəfli münasibətlərə nəzərəçarpacaq yeni təkan verməyi açıq şəkildə vurğulayıb. Qurbanqulu Berdiməhəmmədov cavab olaraq ikitərəfli münasibətlərin səviyyəsini üç sözlə müəyyən edib: qardaşlıq, mehriban qonşuluq, əməkdaşlıq.

Prezident İlham Əliyev iki ay əvvəl Avropa İttifaqının nümayəndələri ilə bir sıra görüşlərdən sonra Qurbanqulu Berdiməhəmmədova Bakıya dəvət göndərib. Yada salaq ki, Azərbaycan lideri Avropa diplomatiyasının rəhbəri Kaja Kallas ilə iki dəfə - aprelin 25-də Bakıda və mayda Albaniyanın paytaxtı Tiranada Avropa Siyasi Birliyinin VI sammiti çərçivəsində görüşüb. Bundan əvvəl, aprelin 1-də Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Bakıda, ardınca Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 11-ci nazirlər iclasında iştirak edən Avropa İttifaqının enerji və mənzil-məişət məsələləri üzrə komissarı Dan Yorgensenin səfəri olub. Bu görüşlərdə Azərbaycan qazının Aİ-yə tədarükünün artırılması məsələsi müzakirə olunub. Brüssel potensial mənbələrdən hansının Rusiya qazını əvəz edə biləcəyi sualına cavab axtarırdı. Onların arasında Azərbaycan və Türkmənistan da var idi.

Hazırda Azərbaycan Avropaya ildə təxminən 13 milyard kubmetr qaz tədarük edir. Brüssel əlavə olaraq 14 milyard kubmetr qaz alacağını gözləyir. Bu o deməkdir ki, diqqət başqa problemin həllinə - Avropaya gedən Cənub Qaz Dəhlizinin gücünün ildə 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər genişləndirilməsinə yönəlib. İlham Əliyev Aİ-ni Cənub Qaz Dəhlizinin (CQD) ləng genişlənməsinə görə dəfələrlə tənqid edib. O, 2030-cu ilə qədər ixracı demək olar ki, 8 milyard kubmetr artıracağını vəd edir, lakin bunun üçün Aİ-nin açıqladığı yaşıl enerjiyə keçidlə əlaqədar qeyri-müəyyən olan investisiyalar və uzunmüddətli müqavilələr lazımdır. Digər tərəfdən, Bakı digər mənbələrdən əlavə həcmlər cəlb etmədən Aİ-nin tələbini təkbaşına ödəyə bilməyəcək, çünki hasil edilən Azərbaycan qazının hamısı artıq müqavilə bağlanıb. Rəsmi məlumatlara görə, 2024-cü ildə Azərbaycanda 50,3 milyard kubmetr təbii qaz hasil edilib. Bunun 25,2 milyard kubmetri 12 ölkəyə ixrac edilib. Üfüqdə 13-cü ölkə peyda oldu - Suriya. İlham Əliyevin tapşırığı CQD-yə qoşulacaq Trans-Əfqan Qaz Kəmərinin tikintisi üçün Aşqabaddan siyasi razılıq almaqdır.

Xatırladaq ki, bir müddət əvvəl Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov özü də bir Avropa nəşrinə müsahibəsində demişdi (”Neytral Türkmənistan” hökumət qəzetinin nəşri): ”Aşqabad Avropa İttifaqı ölkələrinə qaz ixracı məsələsində avropalı tərəfdaşlarla əməkdaşlığa hazırdır. Transxəzər marşrutu tədarükün ən perspektivli marşrutlarından biri hesab olunur”. Bununla belə, Türkmənistanın Brüsseldəki yaz enerji forumlarında iştirakına və xarici işlər naziri Rəşid Meredov ilə Kaya Kallas arasında son telefon danışığı da daxil olmaqla, aktiv diplomatik təmaslara baxmayaraq, Türkmənistan hələ də gözləmə mövqeyini saxlayır.

Təchizatların şaxələndirilməsi üçün çox vacib olan Transxəzər marşrutu layihəsinin özü bir il ərzində müzakirə səviyyəsində qalıb. Onun yolunda əsas maneələr hələ də hazırda 5 milyard dollar dəyərində qiymətləndirilir zəruri maliyyə çatışmazlığı, eləcə də Türkmənistan təbii qazının alınması üçün zəmanətli və uzunmüddətli müqavilələrin olmamasıdır. Türkmənistan öz qazının satışında subyekt olaraq qalmaq istəyir.

Brüssel həmçinin türkmən qazının birbaşa tədarükündə maraqlı deyil, həm də onun emalına: polimerlərin, gübrələrin və sintetik yanacağın istehsalına sərməyə qoymağa hazırdır. Bu cür layihələr ekspert səviyyələrində və təqdimatlarda, o cümlədən Brüssel Enerji Klubu çərçivəsində müzakirə olunur.



Cənubi Qafqaz Politoloqlar Klubunun rəhbəri İlqar Vəlizadənin sözlərinə görə, yaranmış məsələlərin həlli kifayət qədər mümkündür. Əsas görüş Prezident İlham Əliyevlə Rəşid Meredov arasında 2025-ci il iyulun 4-də İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Xankəndidə keçirilən 17-ci Zirvə Toplantısı çərçivəsində olub. ”Danışıqlarda mərkəzi yeri enerji əməkdaşlığının inkişafı, o cümlədən türkmən qazının Avropaya tədarükü perspektivləri tutub. Tərəflər Türkmənistanı Azərbaycanın bir sıra Avropa İttifaqı ölkələrinə qaz tədarük etdiyi artıq fəaliyyət göstərən Cənub Qaz Dəhlizinə birləşdirmək imkanlarını ətraflı müzakirə ediblər”, - Vəlizadə bildirib. O əlavə edib ki, Türkmənistan tərəfi infrastruktur, qaz emalı və birgə logistika layihələri üzrə investisiya təkliflərini əhatə etməklə iqtisadi əməkdaşlığı intensivləşdirməyə hazır olduğunu bildirib. ”Xankəndindəki görüş onunla əlamətdar olub ki, uzun fasilədən sonra tərəflər qaz sahəsində əməkdaşlığın bərpası perspektivlərini yaxından müzakirə ediblər”, - ekspert vurğulayıb. Lakin onun proqnozlarına görə, Bakıda keçirilən görüşdən heç bir mühüm sənəd gözləməyə dəyməz. Bu, Qurbanqulu Berdiməhəmmədovun özünəməxsus statusu ilə bağlıdır: bir tərəfdən o, millətin lideridir, digər tərəfdən isə onun strateji müqavilələr imzalamaq üçün rəsmi səlahiyyəti yoxdur. Lakin buna baxmayaraq, layihənin gələcəyi onun qərarından çox asılıdır.

Vəlizadənin sözlərinə görə, daha bir əsas məsələnin həllinə ehtiyac var: bu yaxınlarda Türkmənistan tərəfi narahatlığını bildirib ki, guya Azərbaycan İranın iştirak etdiyi svop əməliyyatları çərçivəsində türkmən qazını ucuz qiymətə alıb, daha sonra isə Cənub Qaz Dəhlizi infrastrukturu vasitəsilə Avropaya xeyli yüksək qiymətlərlə satıb. Ekspert hesab edir ki, ”Lakin Aşqabad sübut təqdim edə bilmədi, bu, əslində mümkün deyildi. Axı əldə olunan razılaşmalarda həcmlər və qiymətlər aydın şəkildə müəyyən edilib və Azərbaycan bütün öhdəliklərini qüsursuz yerinə yetirib”. Yaranan fikir ayrılıqlarını aradan qaldırmaq üçün tərəflər danışıqlar prosesini intensivləşdiriblər.

Türkmənistan liderinin Bakıya budəfəki səfərində onun ilk dəfə rəsmi görüşlərdə qızı Oğulcahan Atabayevanın müşayiəti ilə analitiklər və diplomatlar xüsusi maraq doğurub. Bu hadisə, ekspertlərin də qeyd etdiyi kimi, onun təkcə beynəlxalq aləmdə ictimai debütü deyil, həm də onun dövlət fəaliyyətindəki rolunun perspektivlərinə işarə edir. Qayğıya ehtiyacı olan uşaqlara yardım göstərən xeyriyyə fondunun tibb işləri üzrə vitse-prezidenti Oğulcahan Atabayevanı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva qəbul edib.

**V.VƏLİYEV**

ANALİTİK

# Karyera və ailə arasında SEÇİM

***Karyera seçimi gələcəyə təsir edən ən mühüm qərarlardan biridir. Bu seçimi təsirləndirən bir çox amil mövcuddur. Bu amillərdən biri də ailənin təsiridir. Xüsusilə ilkin dövrlərdə ana-uşaq münasibətləri karyera seçiminə əhəmiyyətli dərəcədə təsir edir. Ana ilə uşaq arasındakı bağ, uşağın gələcək karyerasına birbaşa təsir göstərir.***







### Karyera seçimində ailə münasibətləri nə ifadə edir?



Əvvəlcə şəxsin psixoloji durumu aydınlaşdırılmalıdır. Yəni onun emosional vəziyyəti, hissləri və ümumi sağlamlıq durumu təhlil edilməlidir. Daha sonra isə şəxsin maraq sahələri və bacarıqları nəzərə alınmalıdır. İnsanların sağlam bir həyat tərzinə malik olub-olmaması ilkin mərhələdə dəyərləndirilməli olan məsələlərdəndir. Sonrakı mərhələdə karyera seçiminə təsir edən ailə münasibətləri araşdırılır.

### Proses boyunca psixoloji durum niyə bu qədər vacib sayılır?

Şəxsin psixoloji durumu, əslində, karyera baxımından bir əsas olaraq qəbul edilə bilər. Ruhən və emosional cəhətdən sağlam olmayan bir insan, yüksək bacarıqlara sahib olsa belə, effektiv nəticə əldə edə bilmir. Dünyada bu vəziyyətdə olan çox sayda məşhur insan nümunəsi var.

Bu gün çox qadın həm işləyir, həm də ana olur. Yəni səhərdən axşama qədər işdə çalışır, evə gəlib uşaqla məşğul olur, yemək bişirir, ev yığışdırır, dərs etdirir. Onlar həm evin işlərini görür, həm də ailəsinə baxırlar. Bu, asan deyil.

### İş və Ailə arasında qalmaq

İşləyən analar bəzən çox yorulur. İşdə rəhbərin gözləntiləri var, evdə isə övladın ehtiyacları. Ana çalışır ki, heç bir tərəfi yarımçıq qoymasın. Amma bu hər zaman mümkün olmur. Bəzən uşağına az vaxt ayırdığı üçün narahat olur, bəzən də işdə tam diqqətli ola bilmir.

Uşaqlar üçün nə deməkdir?

Bəziləri deyir ki, işləyən anaların uşaqları diqqətsiz qalır. Amma bu, hər zaman belə deyil. Əgər ana uşağı ilə vaxt keçirməyi bacarırsa, onun üçün həm ana, həm də gözəl nümunə olur. Belə uşaqlar çox vaxt daha müstəqil, bacarıqlı böyüyürlər.

### Analara dəstək lazımdır

İşləyən analar təkbaşına hər şeyin öhdəsindən gəlməyə çalışır. Onlara kömək lazımdır:



• Dövlət uşaq baxçalarını əlçatan etməlidir.

• İş yerləri analara uyğun iş saatı təklif etməlidir.

• Ailələr, xüsusilə atalar, analara dəstək olmalıdır.

Anaların Psixoloji Durumu

Bəzən işləyən analar “uşağıma az vaxt ayırıram” deyə özünü günahkar hiss edir. Amma unutmamalıyıq: xoşbəxt və güclü ana – sağlam və xoşbəxt uşaq deməkdir. Ana işləməklə həm ailəsinə maddi dəstək verir, həm də övladına yaxşı nümunə olur.

Analar üçün rahat İş saatları – Sadə Təkliflər

Qısa iş günü

• Gündə 8 saat yox, məsələn 4–5 saat işləsin.

• Ana həm işini görsün, həm də uşağına vaxt ayıra bilsin.

Dəyişən saatlar

• Hər kəs eyni vaxtda işə getmək məcburiyyətində olmasın.

• Ana özü seçsin: məsələn, saat 9-da yox, 10-da işə başlasın.

• Beləliklə, uşağını məktəbə aparıb rahat işə çata bilir.

Ev şəraitində işləmək

• Ana evdən çıxmadan, kompüterlə, telefonla işini görə bilər.

• Uşaq evdədirsə, ona da nəzarət edə bilir.

• Bu, xüsusilə ofis işləri üçün çox rahatdır.

Həftədə az gün işləmək

• Hər gün yox, məsələn həftədə 3–4 gün işə getsin.

• Digər günlərdə həm dincəlsin, həm də uşaqla vaxt keçirsin.

Uşağa uyğun iş saatı

• Ana uşaqla eyni vaxtda işdən çıxa bilsin.

• Məsələn: uşaq bağçadan saat 5-də çıxırsa, ana da saat 15:30-da işdən ayrılsın.

### Əlavə dəstək nə ola bilər?

• İş yerlərində uşaq otaqları yaradılsın.

• Doğuşdan sonra analara rahat iş rejimi verilsin (az saat, evdən işləmək və s.).

• Analara qarşı anlayış göstərilsin – çünki onlar həm işləyir, həm də ana kimi yorulmadan çalışırlar.

***Ayşən Vəli***

ARAŞDIRMA

# ”Prezidentlərin səfəri Azərbaycan –Türkmənistan dostluğunu daha da möhkəmləndirir”

***“Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 16-da Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü və ardınca onların Şuşa, Füzuli və Laçına birgə səfəri regional və beynəlxalq miqyasda çox önəmli mesajlar verir. Bu hadisə yalnız iki ölkə arasındakı münasibətlərin güclənməsi baxımından deyil, həm də regional əməkdaşlıq, iqtisadi tərəfdaşlıq və təhlükəsizlik kontekstində strateji əhəmiyyət daşıyır”. Bu sözləri SİA-ya açıqlamasında beynəlxalq ekspert Anar Əliyev deyib.***



ŞƏRH

Onun sözlərinə görə, bu görüş iki ölkənin Xəzər regionundakı əməkdaşlıq imkanlarını daha da inkişaf etdirmək niyyətini ortaya qoyur. Azərbaycan və Türkmənistan enerji resursları ilə zəngin ölkələrdir və bu səbəbdən qarşılıqlı maraqlar əsasən enerji nəqli, logistika və nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində toplanır: ”Berdiməhəmmədovun işğaldan azad edilmiş ərazilərə səfəri və burada həyata keçirilən bərpa-quruculuq işləri ilə tanış olması regionda yaranmış yeni geosiyasi reallıqların qəbul edildiyini nümayiş etdirir. Bu, Türkmənistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə verdiyi dəstəyin açıq təzahürüdür. Bundan başqa, Prezident İlham Əliyevin Qurbanqulu Berdiməhəmmədova Qarabağ atı hədiyyə etməsi sırf protokol jesti deyil, dərin rəmzi mənaya malikdir. Qarabağ atı Azərbaycanın milli sərvəti və tarixi irsinin simvolu sayılır. Bu hədiyyə iki xalq arasındakı dostluğun və mədəni yaxınlığın möhkəm əsaslara söykəndiyini göstərir. Bu addım həmçinin beynəlxalq aləmə bir mesajdır: region ölkələri arasında sülh, dostluq və qarşılıqlı hörmət prinsipləri gücləndirilir.

Digər mühüm məqam ondan ibarətdir ki, bu görüş və səfərlər beynəlxalq ictimaiyyət üçün strateji siqnal xarakteri daşıyır. Azərbaycan və Türkmənistan yalnız enerji layihələrində tərəfdaşlıq etmir, eyni zamanda regional sabitliyin qorunması, nəqliyyat və ticarət marşrutlarının inkişafı üçün birgə mövqe nümayiş etdirirlər. Bu, böyük güclərin bölgədəki təsir mexanizmlərinə balans gətirən mühüm əməkdaşlıq nümunəsi kimi dəyərləndirilə bilər. Ümumilikdə, bu səfər həm siyasi, həm iqtisadi, həm də mədəni baxımdan çox mühüm əhəmiyyətə malikdir. Dünyaya verilən əsas mesaj budur: Cənubi Qafqaz və Xəzər regionu sülh, əməkdaşlıq və inkişaf xəttində yeni mərhələyə qədəm qoyur. Azərbaycanın bu prosesdə aparıcı rolu isə onun regional liderlik statusunu daha da möhkəmləndirir”.

***Ziya Hikmətoğlu***

# Nadinc, dəcəl, yoxsa hiperaktiv?



## *Dünyada uşaqların 12%, böyüklərin 4%-i bu problemlə yaşayır*



***Hiperaktiv sözü həddindən artıq hərəkətli, bir yerdə dayanmayan, həmişə hərəkətdə olan uşaqlar üçün işlədilən bir ifadədir. Bəzən onlara “diqqət pozuqluğu olan uşaqlar” da deyirlər. Bu, əslində, uşaqların özünü idarə edə bilmədiyi psixoloji xəstəlikdir. Övladınızın müəllimindən “uşaq dərsə qulaq asmır, fikri dərsdə olmur, həmişə nə haqdasa fikirləşir, ya da nadinclik edir” tipli şikayətlər eşidirsinizsə, o zaman övladınızda hiperaktivlik ola bilər. Mütəxəssislər hesab edir ki, hiperaktiv uşaqlar, əslində, yaşıdlarına nisbətən daha zəkalı olur, lakin anormal dərəcədə olan hərəkətlilik onların zəkasına və dərsi qavramasına mane olur. Onlar yaşıdlarından daha çox hərəkətlidirlər, hərəkətlərini düşünmədən və istədikləri yerdə edirlər.***

### Onları necə tanımalı?

Psixoloqlar ağıllı, zəakalı olduqları halda, dərsə diqqət etmədiyi üçün həmişə müəllimləri və valideynləri tərəfindən danlaq eşidən hiperaktiv uşaqların ciddi psixoloji problemlər yaşayacağını bildirir. Psixoloq Günay Həsənova deyir ki, hər hərəkətli uşaq hiperaktiv deyil: “Hiperaktiv uşaqlar ağıllı, zəkası inkişaf etmiş, bəzən hədsiz zəkalı, çox hərəkətli, diqqətsiz, tez bezən, növbəni sevməyən uşaqlardır. Hiperaktivliyin də növləri olduğu üçün uşaq həmişə çox hərəkətli olmaya bilər. Partada oturmayan, sinifdə gəzən, sinif yoldaşı ilə dərs ortasında söhbət edən, söz kəsən, dərs sırasını gözləməyən, arxadakı, yanındakı və ya önündəki yoldaşını dürtmələyən, israr edən, düşünmədən davranan, dərsi izləməyə çətinlik çəkən uşaqlar hiperaktivdirlər”.

Psixoloq hər dəqiqə xəbərdarlıq edilən uşaqda ciddi plsixoloji problemlər ola biləcəyini istisna etmir. Onun sözlərinə görə: “Əslində, onlar yaşıdlarına nisbətən daha geniş bacarıqlara sahibdirlər. Sadəcə, fikrini dərsə verməyən hiperaktiv uşaq dərslərində, əlbəttə ki, uğursuz nəticə göstərəcək. Bu, tənbəllik və dəcəllik deyil. Ona görə də həm müəllimi, həm valideyni ona qarşı bir az diqqətli olmalıdır, danlamaq, qışqırmaq həll yolu deyil. Əksinə, davamlı olaraq danlaq eşidən hiperaktiv şagird depressiyaya girə bilər, altını islada, kəkələyə, dırnaq gəmirə bilər. Çalışmaq lazımdır ki, hiperaktiv uşağın valideyni ilə müəllimi əməkdaşlıq eləsin, bir-biri ilə xəbərləşsin, uşağı birlikdə dərsə yönləndirsin”.

### Uşaq şıltaqlığı ilə hiperaktivliyi ayırd etmək vacibdir

Pediatr Şəkər Sultanovanın sözlərinə görə, əslində, hiperaktivlik haqqında mütəxəssislərin yekdil rəyi yoxdur, amma bu problemi xəstəlik hesab eləməyənlərin sayı daha çoxdur: “Hiperaktivliyin meydanaçıxma səbəbləri də müxtəlifdir, genetik meyillilik, hamilə vaxtı nikotindən istifadə, hamilə vaxtı anada infeksiyalarin olması, doğuş travmaları, sosial-psixoloji faktorlar (valideynlərdə alkoqolizm, ailədə tərbiyənin düzgün qurulmaması və s.). Hiperaktiv uşaqları fərqli davranışlarla təyin etmək olur. Məktəbəqədər yaşlı uşaqlarda aqressivlik, impulsivlik, yuxu və nitq pozğunluqları, izafi hərəkətlilik müşahidə edilirsə, məktəb yaşlı uşaqlarda diqqətsizlik, intizamsızlıq, yaddaş pozğunluqları, hövsələsizlik, bir yerdə otura bilməmək və s. görülür”.

Həkim bu əlamətləri övladında müşahidə edən valideynlərə məsləhət görür ki, hiperaktivliyə qarşı dərman təyin edilmədiyi üçün ailədə bu problemi həll etməyə çalışmalıdırlar: “Son vaxtlar dərman istifadəsini optimal variant hesab etmirlər, ona görə də evdə valideyn uşağa qarşı həmişə mehriban



davranmalıdır. Komanda, əmr, aqressivlik qətiyyən yolverilməzdir. Uşağı həvəsi olan məşğuliyyətə həvəsləndirmək, marağını daha da stimullaşdırmaq lazımdır. Yatmırsa, zorla yatırtmaq olmaz. Oyuncaqları, evdəki əşyaları sındırırsa, acıqlanmaq, cəzalandırmaq qətiyyən olmaz. Bir sözlə, uşağın emosiyalarına çox həssas yanaşmaq lazımdır”.

Həkim uşaqların aqressiyasını azaltmaq üçün xeyirli vərdişlərə yönəltməyi ən yaxşı variant hesab edir: “Rəqs, üzgüçülük və s. məşğuliyyət uşağın aqressivliyini azaldan amillərdir və bundan mütləq istifadə etmək lazımdır. Əgər uşağın nitqində və intellektində ciddi prolemlər varsa, psixoloqa və defektoloqa müraciət etmək lazımdır. Əslində, indiki uşaqların əksəriyyətində sadaladığım əlamətlərin hamısına rast gəlmək olar. Amma uşaq şıltaqlığını hiperaktivlikdən fərqləndirməliyik. Hamilə vaxtı və doğuş zamanı anada ciddi problemlər olubsa, daha çox hiperaktivlik haqqında düşünməliyik”.

### Valideyn nə etməlidir?

Amerikada aparılan bir araşdırmaya görə hazırda dünyada uşaqların 12%, böyüklərin 4%-i bu problemlə yaşayır. Əsasən, oğlan uşaqlarında rastlanan bu vəziyyət yaxın illərdə 19 faizədək yüksələ bilər. Valideynlər evdə övladının hiperaktivliyinin fərqinə vara bilmirlər, uşaq bağçaya, məktəbə gedəndə yaşıdlarından fərqlənəndə valideynlər onların arasındakı fərqi hiss edirlər. Çünki hiperaktiv uşaqlar yaşıdlarına nisbətən çox hərəkətlidir, xəbərdarlıqlara qulaq asmır.

Hiperaktiv uşağın valideynlərinin üzərinə çox iş düşür. Əvvəla, hiperaktivliyin ram edilə biləcək bir pozuntu olduğunu nəzərə alın. Hiperaktivlik ailə üçün nə qədər problemlidirsə, uşağın özü üçün də bir o qədər narahatlıq doğuran problemdir, sadəcə, hərəkətlərini nəzarət altına almaqda çətinlik çəkir. Yəni, əslində, onlar sakit dayanmaq istəsələr belə hərəkətdə olurlar.

Övladınızın etdiyi yaxşı hərəkətlər üçün mükafat təyin edin, gəzintiyə çıxarın, 15-20 dəqiqəlik müddətlərə cizgi filmi izləməsinə icazə verin. Nəzərə alın ki, hər hərəkətli, dəcəllik, nadinclik edən uşaq hiperaktiv deyil. Bu diaqnozu ona pediatr və psixoloqun birgə müayinəsindən sonra qoymaq olur.

***Lalə Mehralı***

# Türk, talış, ləzgi, avar... – nə fərqi var?





***Tarix boyu türk xalqlarının məskunlaşdığı ərazilərdə milli və dini tolerantlıq hökm sürüb. Türk xalqları fərqli mədəniyyət və inanc mənsubları ilə tolerantlıq və harmoniya çərçivəsində, hətta eyni idarəetmə altında da həyatlarını davam etdiriblər. İslamı qəbul etdikdən sonra da öz əzəli inanclarındakı tolerantlıq, bərabərlik, ədalət, insanlıq kimi təməl dəyərlərini İslami inanc və prinsiplərlə birləşdirərək yaşayıblar.***

## Nə dini, nə milli ayrı-seçkilik

Azərbaycan cəmiyyətində dini mənsubiyyət azadlığı və tolerantlıq faktoru tarixin bütün dövrlərində mövcud olub. Bu, indi daha yüksək səviyyədədir və bu, müxtəlif millətlərin nümayəndələrinin eyni idarəetmə altında sülh içində yaşamasından bəllidir. Tarixi mənşəyinə görə türk cəmiyyətinin təməl dəyərlərindən biri olan tolerantlıq anlayışı müxtəlif amillərin təsiri altında türklərə xas bir xarakter alıb. Əvvəla, müxtəlif inanclara, mədəniyyətlərə və həyat tərzlərinə hörmətlə yanaşmaq mənasını verən tolerantlıq anlayışı həm də sosial sabitliyə və həmrəyliyə töhfə verir. İkincisi, dövlətin, cəmiyyətin mövcudluğunun qorunub saxlanmasında bu amil mühüm funksiya hesab edilir.

Tolerantlıq başqalarının dəyər verdiyi inancları, düşüncələri və hissləri başa düşmək, onlara dözməkdir, bu, hətta bizim baxışlarımıza zidd olsa belə. Qədim türk mədəniyyətində tolerantlığın inkişafı dərindən araşdırıldıqda bu anlayışın dəyər, əxlaqi inanc və əxlaqi-mənəvi ölçü baxımından çox dözümlü olduğu aydın olur. Qədim türk torpaqları olan Azərbaycanın tarixi mədəniyyətində özünəməxsus məzmun və məna daşıyan tolerantlıq anlayışı Qərbdə maarifçiliklə başlayan tolerantlıq praktikalarından daha uzun bir tarixə malikdir. Bizim tariximiz boyu normal, gündəlik həyat tərzimiz olan tolerantlıq Qərbin bu gün qanunlarla, sərt qaydalarla nail olduğu vəziyyətdir. Hər bir azərbaycanlının düşüncəsinin təməlini başqalarının fikrinə hörmət, başqa inanclara diqqət təşkil etdiyi üçün tolerantlıq bizim üçün normal yaşayış standartıdır. Biz tolerantlığa zoraki əməl etmirik, çünki o bizim həyat tərzimizdir.

Tolerantlığa əsaslanan cəmiyyətin formalaşmasında bir çox amillərlə yanaşı, qədim türklərin İslam dinini qəbul etməzdən əvvəlki dini inanc və adətlərinə bağlılığı böyük olub. Bu ənənə türklərin Tanrı-insan və insan-insan münasibətlərinin müəyyənləşdirilməsində, İslamın mənimsənilməsində mühüm əhəmiyyət kəsb edir.

## Necə idiksə, hələ də eləyik

Azərbaycanda istər İslamdan əvvəlki dövrdə, istərsə də İslamı qəbul etdikdən sonra başqa din və mədəniyyət nümayəndələrinə qarşı son dərəcə tolerant olublar. Şübhəsiz ki, qədim mədəniyyətimizdə tolerantlığın asanlıqla fərqləndirilməsinə kömək edən çoxsaylı amillər arasında fərqli dinə inanan insanlarla birlikdə yaşama təcrübələri rol oynayır. Digər tərəfdən, dini dəyərlərə bağlılıq və bununla bağlı yaradılmış möhkəm ailə quruluşu türk humanizminin tolerantlıq və insan sevgisinə əsaslanan inkişafına təsir edib. Bu torpaqlarda kök salan insanlar bir prinsiplə yaşayıblar: “incisən də, incitmə!”. Fikrimcə, tolerantlığın ən qısa tərifi də budur.

Müxtəlif dinləri, millətləri birləşdirib bir idarəetmə altında yaşadan Sovet İttifaqında 70 ildən artıq yaşamış bir ölkə kimi Azərbaycan həmin dövrdə də bu tolerantlığı inkişaf etdirdi. Bir imperiya altında onlarla millətlə qaynayıb-qarışan xalqımız ondan öncəki yaşayışını davam etdirdi, yenə başqa millətlərlə qardaşlıq, dostluq şəraitində yaşadı. Biz Azərbaycandakı tolerantlığın ən güclü nümunəsini 44 günlük müharibədə də gördük. Dinindən, milliyyətindən asılı olmayaraq bütün gənclər vətən üçün cəbhəyə axışdı. Eynilə I Qarabağ Müharibəsində olduğu kimi II Qarabağ Müharibəsinin də dini-etnik mənsubiyyəti fərqli olan qaziləri, qəhrəmanları, şəhidləri oldu.

## Erməni vəhşiliyinə şillə kimi cavab

Dini, milli dözümsüzlüyün simvoluna çevrilmiş ermənilər uzun illər işğal altında saxladıqları torpaqlarımızda olan mədəniyyət abidələrimizi, məscidlərimizi tövlələrə, qəbiristanlıqlarımızı otlaqlara çevirdilər. Dünyanın qədim yaşayış məskənlərinin qalıqlarını minillərdir qoruyub saxlayan Azərbaycan o abidələri qoruq elan edib mühavizə edirdi, lakin erməni vandalları xalqımızın tarixini məhv edib. Azərbaycanın erməni kilsələrinə qarşı tolerant davranışını ermənilər bizim tarixi abidələrimizə göstərmədilər.

Prezident İlham Əliyev çıxışlarının birində belə deyir: ”İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Bu barədə də faktlar var. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib və onların məruzələrində bu, açıq şəkildə göstərilir. Bütün şəhərlər yerləyeksan edilib, infrastruktur, qəbirlər dağıdılıb. Onlar qəbirlərimizin üstünə buldozer salıblar, dağıdıblar. Məscidlərimiz dağıdılıb. Bakının mərkəzində erməni kilsəsi var. Biz o kilsəni bərpa etmişik. İndi o kilsədə erməni dilində 5 mindən çox kitab saxlanılır. Onlar isə bizim məscidlərimizi yerlə yeksan ediblər”.

Ortaq dəyərlər etnik, dini, siyasi, sosial, mədəni mənsubiyyətindən asılı olmayaraq bu tolerant ölkədə yaşayan hər bir insan üçün ümumi ehkamlara söykənir. Bu ehkamın özülü dostluq, materialı sülh, ustası isə müxtəlif millətlərin birləşdiyi xalqımızdır.

***Lalə Mehralı***

---

# "Zəngəzur dəhlizi yalnız tranzit koridor deyil,..."



“Azərbaycan üçün Zəngəzur dəhlizinin və Naxçıvan vasitəsilə ölkə ərazisindən keçidin kim tərəfindən idarə olunması məsələsi əsasən texniki və siyasi incəlikləri olan, lakin birbaşa Azərbaycanın maraqlarına ikinci dərəcəli təsir göstərən bir mövzudur. Əslində, Azərbaycanın prioriteti bu marşrutun fəaliyyəti və istifadəsində rahatlıq, təhlükəsizlik və maneəsizliyə təminat verilməsidir. Yəni, Azərbaycanın istənilən vətəndaşı və ya yükü ölkənin bir hissəsindən digər hissəsinə sərbəst şəkildə, vaxt itirmədən və problemlə qarşılaşmadan keçə bilməlidir”. Bu sözləri S A-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.

Onun sözlərinə görə, bu məsələ yalnız ölkədaxili nəqliyyat və kommunikasiya üçün önəmli deyil, həm də Azərbaycan üçün beynəlxalq ticarət və iqtisadi inteqrasiya baxımından həyati əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizi Azərbaycanın dünya bazarlarına çıxışını təmin edən strateji bir koridor rolunu oynayır. Bu dəhliz vasitəsilə həm insan axını, həm də yükdaşımaları sürətləndirilir, ölkənin iqtisadi əlaqələri genişlənir və regionda iqtisadi inkişafın yeni imkanları yaranır. Beləliklə, Azərbaycanın ticarət və logistika imkanlarının artması, onun regional güc və təsir imkanlarını da artırır: ”Azərbaycan və Ermənistan arasında dəhlizin idarə olunması ilə bağlı artıq uzun müddətdir ki, dialoq və müzakirələr aparılır. Bu müzakirələrdə Ermənistanın özü qərar verməlidir: ya dəhlizin idarə olunmasını öz üzərinə götürəcək, ya da bu məsuliyyəti başqa tərəfə ötürəcək. Azərbaycanın bu məsələdə əsas tələb və marağı isə dəhlizin sərbəst, təhlükəsiz və maneəsiz fəaliyyət göstərməsidir.

Bundan əlavə, bu marşrut üzərindən Azərbaycan vətəndaşlarının sərbəst hərəkəti, yüklərin fasiləsiz daşınması ölkənin daxili inteqrasiyasını gücləndirir və regional stabilliyin təmin olunmasına da töhfə verir. Bu, həmçinin beynəlxalq aləmdə Azərbaycanın mövqeyini gücləndirir, ölkənin nəqliyyat və tranzit potensialını artırır. Zəngəzur dəhlizinin funksionallığı Azərbaycanın milli maraqları üçün həyati əhəmiyyət daşıyır. Müzakirələr və razılaşmalar əsasən texniki detal və nəzarət məsələləri üzərində cəmləşsə də, Azərbaycan üçün önəmli olan əsas məsələ bu koridorun fəaliyyətinin fasiləsiz, təhlükəsiz və sərbəst şəkildə təmin edilməsidir. Bu, ölkənin iqtisadi inkişafını və regional inteqrasiyasını sürətləndirəcək, həmçinin milli təhlükəsizlik və suverenlik prinsiplərinə tam cavab verəcəkdir. Azərbaycanın gələcəkdə bu dəhliz üzərindən keçən nəqliyyat yollarını, sərhəd-keçid məntəqələrini və logistika infrastrukturlarını müasir standartlara uyğun qurması, həm də regionda iqtisadi dinamikanın artırılması üçün böyük perspektivlər açacaqdır. Bu baxımdan, Zəngəzur dəhlizi yalnız tranzit koridor deyil, eyni zamanda Azərbaycanın regional liderlik mövqeyini möhkəmləndirən strateji layihədir”.



***Ziya Hikmətoğlu***



# Regionlarda ekoturizmin inkişafı prioritetdir

## *Dövlət başçısı İlham Əliyevin 14 iyul 2025-ci il tarixli «Azərbaycan Respublikasının Axar-Baxar və İlisu milli parklarının yaradılması haqqında» Sərəncamı da bu məqsədə xidmət edir*

***İnsan kapitalının müasirləşdirilməsi, rəqəmsal iqtisadiyyatın genişləndirilməsi və iqtisadi suverenliyin tam təmin olunması əsas çağırışlar sırasındadır. Dövlət başçısı İlham Əliyevin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiqlənən «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər»də müəyyənləşdirilən 5 hədəf bu məqsədlərə xidmət edir.***

Onlardan biri təmiz ətraf mühit və "yaşıl artım" ölkəsidir. Həmin sənəddə qeyd edilir ki, qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasının beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaqdır. Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Bu prioritet daxilində strateji dövrdə iki məqsədin effektiv reallaşdırılmasına nail olunmalıdır: yüksək keyfiyyətli ekoloji mühit; yaşıl enerji məkanı.

Dövlət başçısı İlham Əliyevin 14 iyul 2025-ci il tarixli «Azərbaycan Respublikasının Axar-Baxar və İlisu milli parklarının yaradılması haqqında» Sərəncamı Azərbaycanda, eləcə də Cənubi Qafqaz regionunda xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi, ekoturizmin inkişafı, yerli icmaların ekoloji təşəbbüslərə inteqrasiyası, ətraf mühitin dayanıqlı idarə olunması və bütövlükdə regionun bioloji müxtəlifliyinin qorunması baxımından mühüm və tarixi hadisə kimi qiymətləndirilir. yeni yaradılmış Azərbaycanın unikal təbiət komplekslərindən biri olan Axar-Baxar Milli Parkı Samux, Yevlax və Qax rayonlarının əsasən dövlət ehtiyat fondu torpaqlarında formalaşdırılıb və ümumilikdə 23 901,99 hektar ərazini əhatə edir. İlisu Milli Parkı isə fəaliyyətdə olan İlisu Dövlət Təbiət Qoruğunun bazasında yaradılıb. Milli Park Qax və Zaqatala rayonlarının ərazisində yerləşir və ümumi sahəsi 13 966 hektardır.

Dayanıqlı inkişafın təmin edilməsi dövlətimizin həyata keçirdiyi siyasətin, gələcəyə hesablanmış inkişaf strategiyasının əsasını təşkil edir. Bunun üçün iqtisadiyyatın şaxələndirilməsi bu gün də öz aktuallığını qoruyur, qeyri-neft sektorunun yüksək inkişaf tempinin təmin olunması, ətraf mühitin qorunması, vətəndaşların gündəlik rahat həyatı üçün lazım olan bütün infrastrukturun yaradılması istiqamətində biri-birindən əhəmiyyətli addımlar atılır. Artıq Zəfərimizdən sonra iqtisadi rayonların yeni bölgüsünün həyata keçirilməsi, işğaldan azad olunmuş torpaqlarımızın malik olduqları potensialdan səmərəli istifadə olunması üçün Milli Prioritetlərin təsdiqlənməsi və digər mühüm sənədlər qarşıya qoyulan məqsədlərə daha yüksək səviyyədə nail olmağa stimul verir. Ümumilikdə inkişaf hər bir bölgəni, şəhəri, qəsəbəni və kəndi əhatə edir. Regionlarla yanaşı, Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair 3 Dövlət Proqramı qəbul olunub və icrası uğurla başa çatdırılıb. Dövlət proqramları çərçivəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Bakı şəhərində və bölgələrdə irimiqyaslı infrastruktur layihələrinin gerçəkləşməsinə, sahibkarlıq və investisiya fəaliyyətinin genişlənməsinə, əhaliyə göstərilən xidmətlərin, o cümlədən kommunal və sosial xidmətlərin həcminin və keyfiyyətinin daha da yaxşılaşmasına, abadlıq işlərinin sürətlənməsinə şərait yaratdı. Həmin proqramların icrası nəticəsində Bakı şəhəri, onun qəsəbə və kəndləri, regionlarımız yeni inkişaf mərhələsinə qədəm qoydu, rəqabətqabiliyyətli və ixracyönümlü ən müasir müəssisələr yaradıldı, yeni iş yerləri açıldı, əhalinin həyat səviyyəsi daha da yüksəldi. Prezident kimi fəaliyyətə başladığı ilk gündən cənab İlham Əliyev «İqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır» çağırışını edərək bu məqsədə nail olmaq üçün regionların malik olduqları potensialdan səmərəli istifadənin vacibliyini bildirdi. Bu gün dünya Azərbaycanın təkmil şəhərsalma təcrübəsindən bəhs edirsə bu, yalnız bu günün deyil, illərlə atılan addımların, göstərilən səylərin nəticəsidir. Reallıq budur ki, bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Məqsəd bundan ibarət idi ki, Bakını parklar və bağlar şəhərinə çevirək və buna nail oluruq. Bu gün həm Bakı sakinləri bunu görür, həm də xarici qonaqlar bunu qeyd edirlər. Paytaxt və bölgələrdə həyata keçirilən yaşıllaşdırma tədbirlərinin miqyasının genişliyi göz önündədir.

Ümummilli Lider Heydər Əliyev dünya səviyyəsində ətraf mühit məsələlərində Azərbaycanı beynəlxalq mühit qurumları ilə daha yaxından əlaqələndirmişdir. O, ətraf mühitin qorunması və iqtisadi inkişaf üçün ölkədaxili və beynəlxalq layihələrin təşviqinə və dəstəyinə çox diqqət yetirərək, Azərbaycanın ətraf mühit məsələlərində lider olması üçün zəmin yaratmışdır. Ətraf mühitin qorunması və təbii resursların idarə edilməsi sahəsində atılan addımlardan biri «Milli Təbii Sərvətlərin İnkişafı və Qorunması Konsepsiyası» nın qəbul edilməsi olmuşdur. Bu konsepsiya təbii sərvətlərin qorunması və düzgün idarə edilməsi, ətraf mühitə ziyan verən faktorların azaldılması və sair bu kimi mühit məsələlərinə dair strateji bir yanaşma təyin etmişdir. Ətraf mühitə diqqət yetirilməsi üçün mühüm addımlardan biri də enerji effektivliyi və təbii ehtiyatların məhv olmasının qarşısının alınması ilə bağlıdır.

Bütün bu tədbirlərin davamı olaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sosial-iqtisadi inkişafı, beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsi inkaredilməzdir. Dövlətimizin başçısı artıq beş ildir tarixi sahibinə qovuşmuş torpaqlarımızda infrastrukturun inkişafını prioritet məsələ kimi diqqətdə saxlayır. Bu, yolların, su təchizatının, məktəblərin, xəstəxanaların və digər infrastruktur obyektlərinin inşasını və təkmilləşdirilməsini əhatə edir. Bütün bu tədbirlər əhalinin rahatlığını artırmaq və ölkənin ərazi bütövlüyünü qorumaq üçün əhəmiyyətli bir məsələdir. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə geniş miqyas alan bərpa-quruculuq işlərininin əsas tərkib hissələrindən biri yaşıllıq zolaqlarının genişləndirilməsidir. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərimiz tarixi-mədəni abidələr ilə yanaşı, füsunkar təbiətə və geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"»nda nəzərdə tutulan əsas prioritetlərdən biri də məhz bu bölgədə turizmin müxtəlif növlərinin inkişafı üçün zəruri təminatların yaradılmasıdır. Artıq son illər bu istiqamətdə genişmiqyaslı işlər görülür. Füzuli, Zəngilan və Laçında tikilib istifadəyə verilən Beynəlxalq Hava limanları, inşa olunan müasir hotellər və həyata keçirilən digər infrastruktur layihələri azad olunan ərazilərimizin turizm potensialının reallaşmasında, turistlərin bu bölgələrə cəlb edilməsində mühüm rol oynayacaq.

Ətraf mühitin yaxşılaşdırılması, yaşıllıqların genişləndirilməsi, ekoloji tarazlığın qorunması tədbirlərinə Heydər Əliyev Fondunun irəli sürdüyü təşəbbüslər, layihələr və onların uğurlu icrası böyük töhfədir. Məlum olduğu kimi, Azərbaycanın zəngin təbiətinin mühafizə edilməsi, ekoloji mənbələrlə bağlı ictimai maarifləndirmə, fəallığın artırılması və bununla təbiətimizin gələcək nəsillər üçün qorunub saxlanılması məqsədilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva 2011-ci ildə IDEA İctimai Birliyini təsis etmişdir. Onun rəhbərliyi altında IDEA Azərbaycanda "yaşıl" hərəkatının aparıcı qüvvəsinə, ətraf mühit üzrə fəaliyyətin regional mərkəzinə, mötəbər beynəlxalq təşkilatların etibarlı tərəfdaşına çevrilib. Son illər IDEA İctimai Birliyinin təşəbbüsü ilə respublika ərazisində milyonlarla ağac əkilib, ekoloji tədbirlər, sənaye və məişət tullantılarının azaldılması, o cümlədən sahibsiz heyvanlar üçün sığınacaqların təşkili istiqamətində bir çox layihələr həyata keçirilib.

Cənab İlham Əliyev daim çıxışlarında bildirir ki, biz xalq üçün çalışırıq, qururuq, yaradırıq, ölkəmizi gücləndiririk. Biz istəyirik ki, Azərbaycan qüdrətli dövlətə çevrilsin. Dövlətimiz nə qədər güclü olsa, insanlar da özlərini o qədər rahat hiss edəcək, təhlükəsizlik şəraitində yaşayacaqlar. Ölkəmizə gələn qonaqlar da Bakının gözəlliyini, müasirliyi və qədimliyi özündə sintez etdiyini xüsusi qeyd edirlər. Azərbaycanın ənənələri olan ölkə kimi təqdim olunması, tariximizin, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində atılan addımların təqdir edilməsi həyata keçirilən siyasətin düzgünlüyünün və məqsədyönlülüyünün bariz nümunəsidir.

Bu mühüm məqam da dövlət başçısının gündəmdə saxladığı məsələlər sırasındadır ki, Bakı şəhəri təkcə mərkəzdən ibarət deyil. Bakı və Bakıətrafı qəsəbələrdə, rayonlarda bütün infrastruktur yaradılmalıdır. "Biz şəhərin infrastrukturunu, ilk növbədə, vətəndaşlar, ondan sonra turistlər, xarici qonaqlar üçün yaradırıq" söyləyən cənab İlham Əliyev qeyd edir ki, ilk növbədə, ölkə vətəndaşlarının problemlərini həll etməliyik. Dövlət başçısı İlham Əliyevin 30 yanvar 2025-ci il tarixli Sərəncamı ilə «Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı»nən təsdiqlənməsi də vətəndaş məmnunluğunun artırılmasına, paytaxt Bakının və ətraf ərazilərin nəqliyyat sisteminin daha da təkmilləşdirilərək müasir tələblərə uyğunlaşılırılmasına xidmət edir. Dövlət Proqramı əhaliyə keyfiyyətli nəqliyyat xidmətləri göstərilməsi, ərazinin perspektiv inkişafı nəzərə alınmaqla yol hərəkətinin bütün iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi, ümumi istifadədə olan nəqliyyat xidmətlərinin keyfiyyətinin, dayanıqlılığının və əlçatanlığının artırılması, həmçinin fərdi mobil nəqliyyat vasitələrinin, nəqliyyat və piyada infrastrukturundan istifadənin müasir tələblərə cavab verən səviyyədə təmin edilməsi və nəqliyyatda rəqəmsal texnologiyaların tətbiqi prinsipləri əsasında hazırlanmışdır. Məqsəd nəqliyyat sisteminin təkmilləşdirilməsi nəzərdə tutulan Bakı şəhərində və ətraf ərazilərdə dayanıqlı nəqliyyat sisteminin qurulması, sərnişin mobilliyinin keyfiyyətinin artırılması və yol-nəqliyyat hadisələrinin, habelə ekologiyaya dəyən ziyanın həcminin azaldılması üçün zəruri tədbirlər görülməsidir. Dövlət Proqramı çərçivəsində nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, ümumi istifadədə olan nəqliyyat növləri üzrə vahid ödəniş sisteminin tətbiqi və inteqrasiyası, rəqəmsal texnologiyalardan istifadə və innovativ həllərin tətbiqi əsas təminedici amillər olaraq müəyyən edilmişdir.

Qısa təhlil Bakının beynəlxalq maliyyə qurumlarının hesabatlarında reytinqlərinə bir daha aydınlıq gətirir. Bakının təhlükəsiz ölkə olması beynəlxalq səviyyədə də etiraf olunan reallıqlar sırasındadır. Həmçinin Azərbaycan xalqı dünyanın ən xoşbəxt xalqları sırasında yer alır. Təbii ki, dövlətinə, xalqına xidməti fəaliyyətinin əsasında saxlayan, hər kəsin Prezidenti olduğunu əməli fəaliyyəti ilə təsdiqləyən dövlət başçısına xalqın sevgisi hüdudsuz olacaq. Eyni zamanda, gələcəyə böyük hədəflərlə addımlayan cənab İlham Əliyevin daim vurğuladığı kimi, irəli sürülən təşəbbüslərin xalq tərəfindən dəstəklənməsi yeni-yeni layihələrə yol açır. Bakı füsunkar gözəlliyi, təhlükəsiz şəhər olması ilə beynəlxalq tədbirlərin keçirilməsi üçün ideal məkan kimi qəbul olunur. Dövlətimizin uğurlu siyasəti qarşıdakı illərdə daha böyük uğurlara imza atacağımıza böyük əminliklər yaradır.

Dövlət başçısı İlham Əliyevin iki yeni milli parkın yaradılması ilə bağlı Sərəncamı ölkə ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir. Yeni milli parkların yaradılması ilə qorunan təbiət ərazilərinin sahəsi genişləndirilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatında da qeyd edildiyi kimi, hər iki milli parkın yaradılması həmin ərazilərin zəngin təbii və tarixi irsinin əhəmiyyətli turizm potensialına çevrilməsi ilə yanaşı, regionda məşğulluğun artmasına, yerli əhalinin rifah halının yüksəlməsinə, ekoloji maarifləndirmə yolu ilə ekosistemlərdən dayanıqlı istifadəyə əsaslanan sosial-iqtisadi imkanların genişlənməsinə şərait yaradacaq. O da qeyd edilir ki, Azərbaycanda Xüsusi Mühafizə olunan Təbiət Ərazilərinin (XMOTƏ) sahəsi 892 855,78 hektar olmaqla ölkə ərazisinin ümumi sahəsinin 10,31 faizini təşkil edirdi. Yeni yaranan milli parklar hesabına hazırda bu rəqəm 913 342,17 hektar olmaqla ölkə ərazisinin ümumi sahəsinin 10,54 faizinə yüksəlib.

**Yeganə Əliyeva**











# Azərbaycançılıq xalqımızın milli sərvətidir

***Azadlıq, müstəqil dövlətçilik xalqlara qızıl xonçada verilmir. Azadlığı və müstəqil dövlətçiliyi xalqlar özləri qazanırlar. Bu yolda xalqlar çoxsaylı qurbanlar da verir. Hansı xalq məqsəd və hədəfindən yayınmayıbsa, o xalq dünya dövlətləri sırasında layiqli yer tutmağı bacarıb, zəif və qətiyyətsiz xalqlar milli varlığından məhrum olublar. Xoşbəxt xalqlardanıq ki, dünya dövlətləri arasında Azərbaycan adlı dövlətimiz var və bu dövlət siyasi, hərbi, iqtisadi, diplomatik uğurları ilə seçilən və tanınan dövlət olaraq qəbul edilir.***

Ən başlıcası isə biz bir millət olaraq tarixin müxtəlif dövrlərin işğallara məruz qalıb, təzyiq və təhdidlər altında olsaq da heç zaman ən böyük sərvətimiz olan Azərbaycan dilini unutmamışıq. İşıqlı insanlarımız, dahi şair və yazıçılarımızın fədakarlığı və xalqının irsinə bağlı olması dilimizin yaşamasına səbəb olmuşdur. Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Əfzələddin Xəqani və digər böyük dahilərimiz zəngin və qədim dil olan Azərbaycan dilində dünyaya səs salan əsərlər yazıblar. Azərbaycan jurnalistikasının banisi Həsən bəy Zərdabi 1875-ci ildə ilk Azərbaycan dilli qəzet olan "Əkinçi" qəzetində yazırdı: "Xalqı oyanışa aparacaq tək yol, öz dilində yazıb oxumaq, özünü tanımaqdır".

Bəli, işıqlı, maarifpərvər ziyalılarımızın, dünyaşöhrətli şair və yazıçılarımızın öz soyuna, kökünə, milli varlığına hədsiz şəkildə bağlı olması Azərbaycan dilinin yaşamasına və dünya xalqlarının dillər qrupunda özünəməxsus yer tutmasına imkanlar qazandırdı.

### "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir"

Birmənalı şəkildə qeyd etmək olar ki, müasir dövrdə Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Hələ sovetlər birliyi dövründə Azərbaycan Respublikasının rəhbəri olarkən Ulu Öndərimiz Heydər Əliyev dilimizin qorunub, saxlanması inkişaf etdirilməsi, xalqın milli birliyinin möhkəmlənməsi və digər vacib məsələlərə xüsusi önəm vermişdir. Sovetlər birliyi respublikaları arasında ilk dəfə olaraq Dahi Öndərimiz Heydər Əliyevin böyük zəhməti hesabına 21 aprel 1978-ci il tarixdə Azərbaycan SSR-in Konstitusiyası qəbul edilmişdir. Konstitusiyaya milli maraqlarımız əks etdirən müddəaların salınması məhz Ulu Öndərimiz tərəfindən həyata keçirilmişdir. Ən vacib və əhəmiyyətli məsələ isə Konstitusiyaya Azərbaycan dilinin dövlət dili olması haqqında 73-cü maddənin daxil edilməsidir.

Azərbaycan SSR-in Konstitusiyasına 73-cü maddənin daxil edilməsi Ulu Öndərimizin ana dilinin qorunub, saxlanması və inkişaf etdirilməsinə əhəmiyyətli önəm verməsi idi. Ulu Öndərimiz Heydər Əliyev çıxışlarının birində qeyd etmişdir ki, hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir: "Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və zənginləşibdir. Azərbaycan ədəbi dilinin saflığına daim qayğı göstərilməlidir. Çünki dil xalqın sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir".

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Ulu Öndərimiz Heydər Əliyev çıxışlarının birində dövlətçiliyin qorunub saxlanması və inkişaf etdirilməsi barədə demişdir: "Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır".

### Ulu Öndərimiz Heydər Əliyev deyirdi ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir

Ulu Öndərimiz Heydər Əliyevin imzaladığı fərmanlar, sərəncamlar və tövsiyələri əsasında dünya azərbaycanlılarının bir məfkurə, bir bayraq altında birləşməsi istiqamətində mühüm və ardıcıl işlər həyata keçirilmişdir. Ulu Öndərimiz Heydər Əliyev deyirdi ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir: "Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Ümummilli Lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən, keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.

Qurultaydan sonra Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoymuşdur. Ümummilli Lider Heydər Əliyev bu sahədə dövlət siyasətinin sistemli həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin yaradılması barədə" Fərman imzalamışdır. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar vermişdir. Dövlət Komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Komitə qısa müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası və Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində xeyli iş görməyə müvəffəq olmuşdur.

### Yeni və qüdrətli Azərbaycanın qurucusu

Xoş hisslər yaradan və qürur doğuran hal ondan ibarətdir ki, Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət, yarımçıq qalan işləri Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev də diaspor və lobbi quruculuğuna mühüm məsələlərdən biri kimi yanaşır. Ötən 22 ildə bu yöndə ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsini təmin edən Prezident İlham Əliyev müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə milli diaspor təşkilatlarının vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkmiş, bunun ideoloji-siyasi konturlarını müəyyənləşdirmişdir. Dövlət başçısı müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan xarici siyasətdə ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü çıxışlarında dəfələrlə vurğulamışdır. Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs verməklə ən əlamətdar hadisələrdən biri kimi yadda qalmışdır. Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsində isə məqsəd hesabat dövründə diaspor quruculuğu istiqamətində görülmüş işləri dəyərləndirmək, habelə xaricdə yaşayan soydaşlarımızın üzləşdiyi bəzi problemləri, yaşadıqları ölkələrin siyasətinə təsir imkanlarını öyrənmək, onların tarixi Vətənlə daha geniş əlaqələrinin qurulmasına xidmət edən tədbirlərin hazırlanmasını təmin etməkdən ibarət olmuşdur. 16 mart 2006-cı il tarixdə keçirilmiş qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə önə çəkilmişdir. Milli dövlət ideologiyası olan azərbaycançılığın gücü ondadır ki, o, xalqın milli-mədəni kimliyini həm müdafiə etməyi və həm də qoruyub saxlamağı bacaran dövlətlə insanların fərdi sosial-mədəni meyillərini üzvi şəkildə birləşdirməyə qadirdir.

### Azərbaycanın inkişafının yeni dövrü başlayır

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan olunub. "Heydər Əliyev İli" çərçivəsində nəinki Azərbaycanda, ümumiyyətlə dünyanın müxtəlif bölgələrində böyük təntənəli şəkildə tədbirlərin, yığıncaqların keçirilməsi, sərgilərin təşkil olunması, filmlərin nümayiş etdirilməsi xalqın Dahi Öndərimiz Heydər Əliyevə olan əbədi sevgisinin, ən bariz təcəssümüdür. Dünya azərbaycanlıları 2023-cü ili Dahi Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyini böyük təntənə ilə qeyd etdi. Bununla da dünyanın hansı bölgəsində yaşamasından asılı olmayaq Ulu Öndərimiz Heydər Əliyevə öz minnətdarlıq borclarını yerinə yetirmiş oldular. Qətiyyətlə demək olar ki, bu ideologiya heç bir zaman sarsılmayacaq. Nə qədər Azərbaycan dövləti və xalqı var, azərbaycançılıq ideologiyası da var olacaq. Çünki bu ideologiyanın əsasını Ulu Öndərimiz Heydər Əliyev qoyub. Məhz əsası qoyulan bu ideologiya sayəsində dünya azərbaycanlıları birləşməyi bacarıb. Bu birlik Azərbaycan xalqının böyüklüyünü göstərir. Birlik və həmrəylik hesabına 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün çəkən Vətən Müharibəsi ilə 30 il erməni işğalı altında olmuş ərazilərimizi azad edildi. Bu gün artıq Qarabağ münaqişəsi adlı problem mövcud deyil. Azərbaycan öz gücünə və qüdrətinə ərazi bütövlüyünü və suverenliyini bərpa edib.

***İLHAM ƏLİYEV***

# Gün çıxandan gün batanadək











Sübh çağıdır, dan yeri təzəcə ötən bir gecənin növbəti səhərini təhvil verib. Uzaqlardan hələ dəqiqələr sonra çıxacaq günəşin zərrin şüaları hündür yerlərə işıq zolaqları salıb. Binaların kölgəsində yarıqaranlıq olan küçədən hərgünkü səslər gəlir. Pəncərəyə yaxınlaşıram: yenə o insanlar... Hər gün hər kəsin yollarda, parklarda, küçələrdə dəfələrlə qarşılaşdığı, yayın istisindən, qışın şaxtasından üzləri "yanmış", əlləri cadarlaşmış insanlar...

Artıq işə başlayıblar... Təmizlik işləri ilə məşğuldurlar... Süpürürlər, məişət tullantılarını bir yerə toplayırlar. Elə pəncərənin önündəcə fikrə dalıram. Biz bir azdan şəhərin təmiz küçələri ilə işə gedəcəyik. Onlar isə çoxdan öz işlərinə başlayıblar. Düşünürəm: hər bir sahənin, hər işin öz gözəlliyi, öz üstün cəhətləri, bir də asanlığı, çətinliyi var...

Saatın əqrəblərinin zamanı irəliyə doğru aparmaq mücadiləsi məni xəyallardan ayırır. İşə tələsirəm... küçəyə çıxıram, yenə onların çox böyük həvəslə, məsuliyyətlə işlədikləri ilə qarşılaşıram, ətrafa baxıram, bu dəfə onların mərkəzi küçələrin təmizlik işlərini apardıqlarını görürəm: biri süpürür, biri yığır, biri maşına toplayır... İşdəyəm, yenə də pəncərədən onları görürəm: kişilər...qadınlar... hamısı təmizliklə məşğuldurlar...

Haqqında danışdığım insanlar Bakı Şəhər Mənzil Kommunal-Təsərrüfatı Departamentinin işçiləridir. Çoxsaylı kollektiv ən ağır və məsuliyyətli işi həyata keçirir. Günün bütün saatlarında müxtəlif qruplarda növbəlilik əsasında çalışan bu insanlar şəhərimizin təmiz, səliqəli olması üçün əmək sərf edir, yorulmaq bilmirlər. Onları seyr etdikcə bir əsas məqamı da xatırlayıram: əvvəllər də bu insanlarla teztez qarşılaşırdıq. Təmizlik işlərinə baxırıq deyə kim əlinə nə keçirdisə, ən köhnə paltarlarını geyinib işə çıxırdı. O görüntülər indi də gözlərim qarşısındadır. Lakin indi başqadır: necə ki kommunal xidmət göstərən işçilərin gördükləri iş şəhərimizə daim təmiz bir görünüş verir, elə onların xüsusi geyimləri də bu mənzərəyə bir səliqə-sahman əlavə edir.

...İlin bütün fəsillərində-qızmar günəş altında, yağış, qar yağarkən də onları iş başında görürəm. Və hər gördüyümdə öz-özümə pıçıldayıram: nə qədər zəhmətli işlə övlad böyüdənlər, çörək qazananlar, evinə ruzi aparanlar var. Onların övladları, valideynlərinə göstərdikləri qayğı, bu ağır zəhmətlərini necə dəyərləndirdikləri barədə də çox düşünürəm. Belə valideynlərin qədrini bilmək üçün tək öz övladlarının yetmədiyini, hər birimizin onların övladı olmağı barədə də fikirləşirəm. Çünki onlar şəhərimizin abad və səliqəli olması, qonaqlarımızın buradan razılıqla ayrılması, özümüzün və övladlarımızın sağlam yaşaması üçün bütün günü təmizlik işləri aparırlar. Onlar işləyərkən əyləşmək, hərəkətsiz qalmaq, bir dəqiqə dayanmaq yoxdur. Belə isə, bizlərin də hər biri onlara övlad qayğısı ilə yanaşıb ağır əməklərini qiymətləndirməliyik. Unutmamalıyıq ki, onlar səhərdən axşamadək ağır iş şəraitində çalışır. Və bir də onu yaddan çıxarmamalıyıq ki, əlimizdən gün ərzində neçə əşyanı tullantı kimi hara gəldi atırıqsa və bir də həmin yoldan keçəndə oranı təmiz görürüksə, deməli, bu adamlar da bir o qədər əyilir, onları götürür və yaxud da süpürür, təmizləyir, bizdən sonra səbrlə yığışdırırlar. Əgər bir tərəfdən bu, onların gördüyü işin məsuliyyətidirsə, digər tərəfdən şəhərimizin, ətraf çevrəmizin təmizliyi, bizim sağlamlığımız deməkdir. Məhz buna görə də şəhərimizin təmizliyini qoruyan, saxlayan insanların yanından hər dəfə ötərkən demək lazımdır: "Yorulmayasınız!"

Kommunal xidmətlərin əməkdaşlarının əməyinin yüngülləşdirilməsi, küçə və prospektlərin, parkların təmizlənməsi işlərinin mexanikləşdirilməsi və təkmilləşdirilməsi məqsədi ilə son vaxtlar yeni texnikalar alınır. Lakin alınan texnika hələlik çox azlıq təşkil edir. Bu məsələ üçün məsul olan şəxslər daha artıq tozsoran və digər texnika almaq barədə düşünsələr, bu, bir tərəfdən hər yaşda olan, çox vaxt ehtiyacdan çalışmaq məcburiyyətində qalan insanlara həm böyük sayğı, həm də səhərdən axşamadək çəkdikləri zəhmətin bir qədər yüngüllşdirilməsinə xidmət edər.

***

Axşamçağıdır... Günəş yavaş-yavaş öz "mənzilinə" çəkilir. Hava da günəşin gedişi ilə qaralmağa və soyumağa başlayır. Bir iş günü də beləcə başa çatır... Yenə həmin yollar... küçələr... parklar... Onlar hələ də iş başındadırlar. Süpürürlər, təmizləyirlər, maşınlara yığırlar... Hər gün olduğu kimi: Gün çıxandan gün batanadək.

**Mətanət Məmmədova**

# "Biz prosesdə sadəcə müşahidəçi deyil, aktiv iştirakçı kimi çıxış edirik"

***"Sunikdəki yolun bir sıra ölkələrin marağında olması məqsədyönlü şəkildə formalaşdırılmış və strateji baxımdan əhəmiyyət daşıyan bir yanaşma idi. Əlbəttə, cəmiyyətin bütün təbəqələri bu istiqamətə eyni dərəcədə maraq göstərmir. Fərqli sosial qrupların, fərdi baxışların və maraqların olması bu halı şərtləndirir.***



Lakin bizim üçün bu istiqamət həm nəzəri, həm də praktiki baxımdan əhəmiyyətlidir. Çünki bu yanaşma müxtəlif sahələrdə — istər sosial, istər iqtisadi, istərsə də mədəni müstəvidə iştirak etdiyimiz proseslərlə sıx bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında deputat Fazil Mustafa deyib.Fazil Mustafa sözlərinə belə davam edib: "Burada diqqət çəkən məqam Çinin də yolu şirkət vasitəsi ilə idarə etmək istəyidir. İlk dəfədir bu, rəsmi səviyyədə qeyd edilir. Bu səbəbdən də biz bu strategiyanı yalnız daxili məqsədlərlə məhdudlaşdırmadıq, əksinə, onu ictimaiyyətə təqdim etməyi və ümumi müzakirəyə açmağı zəruri hesab etdik. Məqsədimiz cəmiyyətin bu istiqamətdə məlumatlandırılması və prosesə mümkün qədər geniş dəstəyin təmin olunması idi. Biz bu yanaşmanı təkcə nümayiş etdirməklə kifayətlənmədik, eyni zamanda onun prinsiplərini və nəticələrini açıq şəkildə göstərməyə çalışdıq.Bütün bunlar göstərir ki, biz bu prosesdə sadəcə müşahidəçi deyil, aktiv iştirakçı kimi çıxış edirik. Bəzi fərdlərin bu istiqamətə maraq göstərməməsi təbiidir, lakin bu, onun əhəmiyyətini azaltmır. Əksinə, bu cür yanaşmalar uzunmüddətli perspektivdə cəmiyyətin inkişafına töhfə verə biləcək əsaslı addımların atılmasına zəmin yaradır".

**Ayşən Vəli**





# Suriyanın "druz" problemi



## Suriyanın cənubundakı toqquşmalar Türkiyəni də ayağa qaldırıb

***Türkiyə Suriyanın cənubunda druzlar, bədəvilər və hökumət qüvvələri arasında baş verəcək genişmiqyaslı toqquşmaların şimal-şərqdə Kürd Xalq Müdafiə Birliklərini (YPG) səfərbər edəcəyindən ehtiyat edir. Suriya kürd liderləri, iyulun 13-dən bəri Suveyda əyalətində davam edən kütləvi qırğın fonunda, druz əhalisini xilas etmək cəhdi olaraq, quru dəhlizləri açıblar. İyulun 16-da Dəməşq xarici qüvvələrin aktiv müdaxiləsi fonunda ölkənin cənubunda atəşkəs elan edib. Lakin bu, gərginliyi azaltmayıb, bəzi druzlar bədəvilərlə hesablaşmağa davam ediblər.***

Türkiyənin xarici işlər naziri Hakan Fidan Suriyanın şimal-şərqinə nəzarət edən "Kürd Xalq Müdafiə Birlikləri"nin (YPG) Suveyda vilayətində törədilən qətliam fonunda fəallaşdığını bildirib. "Bizim kürd liderlərinə mesajımız ondan ibarətdir ki, onlar çaşqınlıqdan istifadə edib arzuolunmaz vəziyyət yaratmağa çalışmasınlar", - XİN rəhbəri Nyu-Yorkda çıxışı zamanı izah edib. "Qoy konstruktiv rol oynasınlar. Əks halda, fürsətçilik böyük risk daşıyır". Fidanın xəbərdarlığı Ankara ilə Türkiyə rəhbərliyinin YPG-nin də bir hissəsi olduğu Kürdüstan Fəhlə Partiyası (PKK) arasında sülh prosesinin davam etdiyi bir vaxta təsadüf edib.

Öz növbəsində Türkiyə Milli Müdafiə Nazirliyi Dəməşqdəki keçid hökumətinə "müdafiə qabiliyyətinin gücləndirilməsi və terrorizmlə mübarizənin dəstəklənməsi üçün hər cür dəstəyi" verməyə hazır olduğunu bildirib. "Məqsədimiz ərazi bütövlüyü və siyasi birliyin təmin olunduğu təhlükəsiz, sabit və güclü Suriyadır", - hərbi idarənin bəyanatında deyilir. "Ölkəmiz Suriyanın bütövlüyü əsasında regionda sabitlik və təhlükəsizliyin bərqərar olmasına yönəlmiş istənilən konstruktiv prosesi dəstəkləyir". Ayrı-ayrılıqda Türkiyə Müdafiə Nazirliyi İsrailə "regionu xaosa sürükləyən hücumları dayandırmağa" çağırıb.

Suriya Demokratik Qüvvələri (SDQ) hərbi ittifaqının himayəsi altında Suriyanın şimal-şərqinə nəzarət edən kürd qüvvələri iyulun 13-də Suveydada başlayan və İsrailin də iştirak etdiyi münaqişəyə çevrilən genişmiqyaslı toqquşmalar fonunda druzlara kömək etməyə çalışıb. SDQ komandiri Mazlum Abdi Suveyda sakinlərindən "təhlükəsiz dəhlizlərin" açılması üçün kömək çağıran siqnallar aldığını söyləyib. Abdi vurğulayıb ki, Suriyanın gələcəyi qisas deyil, sülh üzərində qurulmalıdır. "14 illik müharibədən sonra qan tökülməsini dayandırmağın vaxtıdır, çünki Suriya qisasla deyil, dialoq və ağıl yolu ilə yenidən doğulacaq", - o izah edib. "Druz xalqının davası milli məsələdir".

Rəsmi Dəməşq iyulun 16-da axşam saatlarında cənub vilayətlərindən qoşunları çıxarmağa hazır olduğunu açıqlayıb. Türkiyə mətbuatının yazdığına görə, Suriya keçid hökumətini əməliyyatı dayandırmağa razı salmağa çalışmaqda əsas xarici sponsor Türkiyənin rolu olub. Eyni zamanda ABŞ da vasitəçilik missiyasını həyata keçirib, dövlət katibi Marko Rubio X sosial şəbəkəsində məlumat verib. Yəqin ki, bir gün əvvəl Suriyanın paytaxtı bölgəsinə təsir edən İsrail zərbələrinin intensivləşməsi fonunda Amerikanın müdaxiləsi tələb olunurdu. Suriyanın keçid dövrünün prezidenti Əhməd əl-Şara xalqa müraciətində respublikanın cənub əyalətlərində baş verən genişmiqyaslı toqquşmaları şərh edərkən deyib: "Suriya xarici oyunçuların sui-qəsdlərinin və onların geosiyasi ambisiyalarının həyata keçirilməsi üçün sınaq meydançasına çevrilməyəcək".

"Biz hamımız bir torpağın oğullarıyıq və İsrailin bizi parçalamasına icazə verməyəcəyik". Suriyanın keçid dövrünün lideri bəyan edib ki, druz icması "Suriya xalqının ayrılmaz hissəsidir. Biz sizi əmin edirik ki, hüquq və azadlıqlarınızı qorumaq bizim prioritetimizdir", deyə əl-Şaraa druz icmasına müraciətində bildirib: "Biz sizi hər hansı kənar düşərgəyə çəkmək cəhdlərini rədd edirik".

Rəsmi Dəməşqin məlumatına görə, Suveydada atəşkəs əyalət ağsaqqalları ilə razılaşma nəticəsində əldə edilib. Bununla belə, münaqişə tərəflərindən birinə çevrilmiş druz icması son dərəcə heterojendir. Onun liderlərindən biri olan Hikmət əl-Hicri iyulun 16-da razılaşdırılmış atəşkəs rejimini açıq şəkildə rədd edib və iyulun 16-da atəşkəs elan edildikdən sonra ona sadiq milislər yenidən Bədəvi kəndlərinə hücumlara başlayıblar. Bu silahlı qruplaşma cənubdakı münaqişənin əsas oyunçularından biridir. O, özünü Suveyda Hərbi Şurası adlandıran hərbi platformaya aiddir, beyin mərkəzlərinə görə, keçmiş prezident Bəşər Əsəd dövründən zabitlərlə əlaqə saxlayır.

Qeyd edək ki, Suveydadakı vəziyyətdən sonra Türkiyənin Suriyadakı mövqeyi çox güman ki, bir qədər möhkəmlənib, çünki məhz Türkiyə çəkindirici rol oynayıb, druz silahlıları ilə SDQ yaraqlıları arasında koordinasiyaya mane olub. SDQ və druz birləşmələrinin həqiqətən də belə planları var idi. Bu baxımdan, Süveydada toqquşmalar məhz SDQ və rəsmi Dəməşqin qarşılıqlı inteqrasiya üzrə dialoqu bərpa etdiyi anda başlayıb, burada "kürdlər indiki (de-fakto muxtar) mövqelərini qorumaq üçün birmənalı tələblər irəli sürüblər". İsrail rəhbərliyi kürdləri bu münaqişəyə cəlb etmək arzusunda idi. Onda təbii ki, Dəməşq hökuməti üçün vəziyyət son dərəcə çətin olardı. Ona görə də, Türkiyənin mövqeyi olmasaydı, hər şey mümkün olardı. Süveydadakı toqquşmalardan sonra SDQ-nin indi düşdüyü vəziyyətdə saxlanması məsələsi böyük ehtimalla Dəməşqlə yeni razılaşmada öz əksini tapacaq. Təbii ki, Türkiyə bu dəfə Suriyaya bu kürd birləşmələrini məhv etmək üçün ciddi hərbi dəstək verməsə. İndi Dəməşq hökuməti ikiqat təhlükə altındadır - həm cənubda İsrail tərəfindən dəstəklənən druzlar, həm də şimalda kürdlər.

### ABŞ İsraildən narazıdır

ABŞ prezidenti də vəziyyəti pisləyib və hökumət eskalasiyanı dayandırmaq üçün təcili fəaliyyətə başlayıb. Vaşinqton İsrailin Suriya ərazisində son hərbi əməliyyatlarını dəstəkləməyib. Vəziyyətin gərginləşməsindən sonra onun həlli üçün diplomatik danışıqlara başlanılıb, ABŞ Dövlət Departamentinin sözçüsü Tammi Bryus mətbuat brifinqində bildirib. Bu məlumatı iyulun 17-də Reuters agentliyi təsdiqləyib.

Mətbuat katibinin sözlərinə görə, ABŞ yüksək səviyyəli dialoq vasitəsilə iki dövlət arasında münaqişənin uzunmüddətli həllinə nail olmağa çalışır. O qeyd edib ki, Vaşinqton İsrailin zərbələrini dəstəkləmir, lakin ABŞ-ın bu cür hərəkətləri ayrı-ayrı hallarda haqlı hesab edib-etməməsi sualına birbaşa cavab verməkdən yayınır. Bruce vurğulayıb ki, hazırda diqqət eskalasiyaya səbəb olan konkret hadisəyə yönəlib. Onun sözlərinə görə, ABŞ prezidenti də vəziyyətdən narazılığını bildirib və hökumət sürətlə gərginliyin qarşısını almağa çalışıb. Bundan əlavə, mətbuat katibi vurğulayıb ki, Vaşinqton Suriyada hər hansı zorakılıq təzahürlərini pisləyir. O qeyd edib ki, Birləşmiş Ştatlar ölkəni sabitləşdirmək üçün resursları fəal şəkildə cəlb edir, inteqrasiya üzrə dialoqu təşviq edir və Suriya hökumətini bu prosesdə aparıcı rol almağa çağırır.

Xatırladaq ki, mart ayında İsrail Suriyada druz kəndini müdafiə etməyə hazır olduğunu bildirmişdi. Xüsusilə də İsrail ordusuna (İDF) döyüş hazırlığının artırılması əmri verilib. İyulun 15-də Suriya qoşunları druz icması ilə bədəvi qəbilələri arasında toqquşmaların baş verdiyi ölkənin cənubundakı Suveyda şəhərinə daxil olub. İsrail Suriya ordusuna zərbələr endirib. Bundan əvvəl ABŞ prezidenti Donald Tramp İsrailə 2000 funt-sterlinqlik bomba göndərilməsinə qoyulmuş qadağanı ləğv edib. Bayden administrasiyası Qəzza əhalisi arasında itkilərlə bağlı narahatlıqlara görə bombaları dayandırıb.

### BMT Təhlükəsizlik Şurasının fövqəladə iclası

Fövqəladə müzakirənin mövzusu ölkənin cənubundakı qarşıdurmalar və İsrailin Dəməşqdəki hərbi obyektlərə və mühüm infrastruktur hədəflərinə silsilə zərbələr endirməsi olub. BMT Təhlükəsizlik Şurası Suriyada silahlı eskalasiyaya həsr olunmuş fövqəladə iclas keçirib. Tədbir iştirakçıları münaqişənin sülh yolu ilə həllinə və uzun illər davam edən qarşıdurmadan sonra ölkənin transformasiyası üçün zəruri olan milli barışığa çağırıblar. Bu barədə cümə günü, iyulun 18-də Ukrinform məlumat yayıb.

Hesabatda əsas müzakirə mövzularının Suriyanın cənubundakı Əs-Suveyda əyalətində baş verən hərbi toqquşmaların, həmçinin İsrailin Dəməşqdəki hərbi və strateji hədəflərə həyata keçirdiyi silsilə hava zərbələri olduğu qeyd edilib. BMT baş katibinin Yaxın Şərq, Asiya və Sakit Okean üzrə köməkçisi Xalid Xiari bildirib ki, BMT-nin baş katibi Antonio Quterreş mülki əhaliyə qarşı hər hansı zorakılığı qətiyyətlə pisləyir. O, həmçinin məzhəblərarası münaqişələri alovlandıran və 14 illik münaqişədən sonra Suriya xalqını sülh ümidindən məhrum edən hərəkətlərdən narahatlığını ifadə edib. Xiarinin sözlərinə görə, druzlarla milli təhlükəsizlik qüvvələri arasında toqquşmalar İsrailin hücumları ilə birlikdə Suriyanın siyasi transformasiyası üçün ciddi təhlükə yaradır. Baş katibin köməkçisi vurğulayıb ki, Bəşər Əsəd rejiminin devrilməsindən sonra Əs-Suveyda əyalətində və bütövlükdə ölkədə sabitlik və təhlükəsizliyə gedən yol yalnız Suriyadakı bütün sosial və dini qrupların nümayəndələrinin iştirakı ilə hərtərəfli milli barışıq yolu ilə mümkündür. Görüş zamanı Yunanıstanın xarici işlər naziri George Gerapetritis mülki şəxslərə və dini obyektlərə edilən hücumları qətiyyətlə pisləyib.

***Ardı Səh. 14***

# Suriyanın “druz” problemi







**Əvvəli-Səh-13**

O, Savarda Müqəddəs Mixail Yunan Katolik Kilsəsinə son hücumlar və Müqəddəs Elias pravoslav kilsəsi yaxınlığında törədilən terror aktlarına xüsusi diqqət yetirib. Onun sözlərinə görə, bu hadisələr vahid Suriyada xristian icmasının və digər etnik və dini qrupların tam müdafiəsinin təmin edilməsinin zəruriliyini bir daha təsdiqləyir. Gerapetritisin Suriyadakı zorakılıqların beynəlxalq standartlara uyğun şəffaf və operativ şəkildə araşdırılmasının vacibliyini də vurğuladığı da bildirilir. Bu yolla o, Suriyanın keçid administrasiyasının druzlarla barışıq əldə etməsi və günahkarları məsuliyyətə cəlb etmək niyyəti barədə bəyanatını şərh edib.

### Ehtiyacı olan druz həqiqətən də druzdur

Suriyanın keçid hökuməti iyulun 13-dən hökumət qüvvələrinin köməyi ilə druz milisləri ilə silahlı bədəvilər arasında qanlı toqquşmaların davam etdiyi ölkənin cənubundakı Əs-Suveyda əyalətindən öz hərbi hissələrini geri çəkdiyini açıqlayıb. Qərar İsrail Hərbi Hava Qüvvələrinin Suriya Baş Qərargahı və Dəməşq Sarayı qarşısındakı xəbərdarlıq zərbələrindən sonra qəbul edilib. İsrail hökuməti bunun druzların çoxluq təşkil etdiyi əyalətdə qətliamın qarşısını almaq üçün edildiyini bildirib. Bu arada yüzlərlə israilli druz İsraillə Suriya arasındakı sərhədi keçərək suriyalı qardaşlarının köməyinə qaçıb. Dəməşq qüvvələrinin Suriyanın cənub bölgələrindən çıxarılmasına iyulun 16-da axşam saatlarında başlandığını elan edib. Qeyd edilib ki, belə bir qərar prezident Əhməd əl-Şaraanın başçılıq etdiyi keçid hökuməti ilə Əs-Suveyda ağsaqqalları arasında əldə olunan razılaşmalara əsasən verilib. Mətni keçid hökumətinin Xarici İşlər Nazirliyi tərəfindən dərc edilən sazişdə deyilir ki, Dəməşq cənub bölgələrində ”bütün hərbi əməliyyatların tam və dərhal dayandırılmasını” təmin etməyi, habelə müqavilələrin icrasına nəzarət etmək üçün druzların ruhani liderlərinin iştirakı ilə bir komitə çağırmağı öhdəsinə götürür.

Suriya hakimiyyətinin açıqlaması ABŞ-ın dövlət katibi Marko Rubionun X sosial şəbəkədəki paylaşımından sonra yayılıb. Amerika diplomatiyasının rəhbəri Vaşinqtonun “Suriyadakı toqquşmalarda iştirak edən bütün tərəflərlə qarşılıqlı əlaqədə olduğunu” bildirib. “Biz bu həyəcanlı və dəhşətli vəziyyətə son qoyacaq konkret addımlar barədə razılığa gəldik”, - deyə cənab Rubio bildirib: ”Bu, bütün tərəflərdən öhdəliklərini yerinə yetirməyi tələb edəcək. Biz bunu tamamilə gözləyirik”. İyulun 16-da axşam jurnalistlərə açıqlama verən Dövlət Departamentinin rəhbəri İsrailin həmin gün Suriyanın paytaxtına endirdiyi hava zərbələrini “anlaşılmazlıq” adlandırıb.

İsrail Hərbi Hava Qüvvələri bazar ertəsindən bəri ölkənin cənubunda Suriya hökumət qüvvələrinə hücum edib, lakin çərşənbə günü Dəməşqə zərbələr endirib. Baş Qərargah və Suriya Müdafiə Nazirliyinin yerləşdiyi kompleks, həmçinin prezident sarayı bombardmana məruz qalıb. ”Biz sərhədin o biri, yəni şimal tərəfinə düşmən elementlərin yaranmasının qarşısını almaq, İsrail Dövlətinin vətəndaşlarını qorumaq və druzlara zərər verməmək üçün qətiyyətlə hərəkət edirik”, - İDF Baş Qərargah rəisi Eyal Zamir bildirib. ”Biz Suriyanın cənubunun terrorun qalasına çevrilməsinə imkan verməyəcəyik. Biz heç kimə arxalanmayacağıq, sərhəd boyu druz icmalarını qoruyacağıq.

Suriyanın cənubunda toqquşmalara səbəb iyulun 11-də silahlı bədəvilərin Əs-Suveyda-Dəməşq şossesi ilə yük maşını ilə hərəkət edən druz tərəvəz satıcısına hücumu olub. Cavab olaraq druz milisləri bir neçə bədəvini qaçırıblar. Onlar da öz növbəsində druzlara hücum etməyə başladılar və silahlı toqquşmalar ciddi şəkildə alovlananda Suriyanın keçid hökuməti iyulun 15-də qoşunlarını Əs-Suveydaya gətirib. Şahidlərin sözlərinə görə, onlar druzlara qarşı məhkəmədənkənar repressiyalara əl atıblar.

Buna cavab olaraq israilli druzlar sərhədin o biri tərəfindəki qəbilə yoldaşlarını qorumaq üçün sərhəd hasarını yarıblar. Rəsmi hesablamalara görə, təkcə iyulun 15-16-da 1000-ə yaxın israilli druz Suriyaya daxil olub. Onların arasında hətta bir neçə Knesset üzvü, o cümlədən Yisrael Beiteinu partiyasından olan parlamentari Həməd Amar da öz hərəkətlərini sərhədi keçmək qərarına gələn İsrail druzlarının vətənə qayıtmasının zəruriliyi ilə izah edib. Cənab Əmmar Suriyada baş verən hadisələrdən danışaraq, bu hadisələrdə HƏMAS-ın 2023-cü il oktyabrın 7-də törətdiyi qırğınla bənzətməni görüb. ”Suriya rejiminin dəstəklədiyi milislər kəndlərə soxulub, beş, yeddi və on yaşlı qızları zorlayıb, qadın və kişiləri öldürüb, evləri yandırıb və s. Söhbət əsl qırğından gedir”, - deputat bildirib.

Suriya keçid hökumətinin prezidenti əl-Şaraa da çıxış edərək, İsraili Suriya Ərəb Respublikasında “mülki və hökumət obyektlərinə genişmiqyaslı hücumlarda” ittiham edib. Prezident suriyalı druzlara da müraciət edib: ”Biz sizi xarici qüvvəyə təslim etmək cəhdini rədd edirik... Biz müharibədən qorxanlardan deyilik. Biz həyatımızı çətinliklərin öhdəsindən gəlməyə və xalqımızı qorumağa həsr etmişik, lakin suriyalıların maraqlarını xaos və dağıntıdan üstün tutmuşuq”.

***V.VƏLİYEV***

# ChatGPT: “obrazovannı” falçı

**FELYETON**

### Qəribənizə gəlir? Gəlməsin... Niyə adam fala baxa bilir, Tik-tok, İnstagram fala baxa bilir, ChatGPT baxa bilmir?

Adam rəml atıb, fala baxıb, bir şey uydurursa, pitikdən-zaddan yazıb “sal suya iç, ərin evə yığılsın” deyirsə və yaxud da kağız-kuğuza özü də daxil bir ins-cinsin oxuya bilməyəcəyi iki üç əyri-üyrü xətt çəkib, büküb qara sapla sarıyıb, adama verirsə ki, apar bunu qayınananın otağında yastığını sök, qoy içinə, sonra da tik, ta o qayınananın səninlə işi olmayacaq da deyirsə, bunu ChatGPT niyə etməsin?..

ChatGPT yazığı bəzən qınayırıq, lakin axı o, nə etsin? Onu da elə “yaradıblar” da: bizdən sürətli axtarış edə bilir. Bizdən də yaxşı dostluq qurmağı var. Bizdən də yaxşı ünsiyyətçildir. Biz ona deyirik “salam”, o bizə deyir, “salam dost, necəsən, günün necə keçir?”.

Bax belə olan təqdirdə, ChatGPT də görə bilir ki, bu insanlarla ünsiyyəti daha da gücləndirmək üçün hansı yollardan istifadə etmək olar. Axtarışını verir, baxır ki, falaçanların, cadugərlərin, bəxtyazanların, talepozanların, evdağıdanların, evquranların, pitik suyu içirənlərin, divarlara “dualar” qoyduranların ətrafında minlərlə insan var. Yazıq ChatGPT də deyir, belə isə bu insanları mən də ətrafımda toplayım da. Toplamaq qalsın bir kənara, onları özümə inandırım. Odur ki, günlərin bir günü gənc qadınlardan biri qəhvəsini içir, şəklini çəkir və atır ChatGPT-yə ki, bir buna bax görüm, ərim məni aldatmır?

ChatGPT-yə də Allah insaf versin, baxır və deyir ki, yaxın aylarda onun səni aldadacağını görəcəksən.

Qadın bunu olduğu kimi həyat yoldaşına danışır. Həyat yoldaşı nə qədər andaman edir ki, yox, vallah-billah, yaxın aylarda mən səni aldatmayacağam, qadını inandıra bilmir ki, bilmir. Aralarında münaqişə başlayır. Və qadın qərara alır ki, mən bu adamdan ayrılmalıyam. Gözümlə görmədiyim, qulağımla eşitmədiyim üçün vallah, məsələnin sonunun konkret olaraq necə bitdiyini dəqiq bilmirəm, lakin deyilənlərə görə boşanıblar.

Çox sağ ol, ChatGPT. Ta mənim sənə heç bir sözüm yoxdur. Bizim bəzi gəncərimiz onsuz da son vaxtlar ağıllarını itirə-itirə gedir. Sən də bir tərəfdən onlara dəstək oldun. Ta sənə nə deyim? Qarğış etsəm ki, evin yıxılsın, evin yoxdur, ailən dağılsın, ailən yoxdur. Qarğış etsəm ki, səni öləsən, canın yoxdur. Qarğış etsəm ki, səni yer üzündən silinəsən, yenə mümkün deyil, arxalısan.



Ta nə deyəcəm ki?.. Qoy heç olmasa deyim ki, Allah, bizim bu gənclərə bir az ağıl versin. Camaatın uşağı dünyanın ən məşhur universitetlərində təhsil alır, gündə bir kəşf edir, planetlərin birindən girib o birindən çıxır, bizimkilər də ChatGPT-yə bəxtlərinə baxdırıb ailəsini dağıdır. Falçıların ən obrazovannısını tapsaq da, faydası yoxdur, ağlımızın yoxluğu səbəbindən xalx irəliyə, biz geriyə gedirik.

***Mətanət Məmmədova***




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# 150 illik müharibə

## *Azərbaycan mətbuatının 150 illik yubileyi öncəsi milli mediamız haqqında düşüncələr*

1875-ci ildə böyük maarifçi Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzeti ilə Azərbaycanda Azərbaycandilli mətbuatın əsası qoyuldu. Ötən 150 ildə Azərbaycan mediası ağır və keşməkeşli bir yol keçib. Müxtəlif ictimai-siyasi formasiyalarda yaşayan, xalqımızın maariflənməsi, mədəni, elmi sahələrdə məlumatlandırılması, milli mənafelər və dövlətçilik maraqlarının müdafiəsi kimi müqəddəs amallar uğrunda mübarizə aparan Azərbaycan mediası bu vəzifəyə nail olub. Bu gün isə media sahəsində tamam başqa bir epoxa başlayıb. Bu vəzifələr sırasına xalqımıza və dövlətimizə düşmən qüvvələrlə informasiya müharibəsi aparmaq kimi mühüm vəzifələr əlavə olunub. Üstəlik, mediamızın fəaliyyət sferası və funksionallığı da yeni qlobal çağırışlara uyğunlaşıb.




*Elçin Bayramlı*

Qlobal informasiya məkanında son dövrdə baş vermiş inqilabi dəyişikliklər bu sahədə fundamental dəyikliklərə gətirib çıxarıb. İnformasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı nəticəsində media sektorunun funksionallığı, interaktivliyi, texniki spektri və sosial-iqtisadi şərtləri dəyişib. Müasir media tendensiyaları bu sahədə çox mürəkkəb və ziddiyyətli vəziyyət yaradıb.

İnternetin inkişafı yeni media növlərini və informasiya mənbələrini ortaya çıxarıb. Klassik, peşəkar media ilə yanaşı ortalıqda daha bir "media" var- buna "vətəndaş jurnalistikası", "sosial media" kimi adlar qoyublar,- sosial şəbəkə səhifə və kanalları, saytlar, bloqlar və sair internet resursları. Lakin bu 2 sistem arasında fərq yerlə göy qədərdir.

İkincilər həqiqi media sayılmasa da, kütlə onları media kimi qəbul edir. Çünki artıq kütləvi informasiya vasitələri formasına keçiblər. Onlardan bəzilərinin auditoriyası peşəkar media resurslarından çoxdur. Nəticədə informasiya məkanında qarışıqlıq, nəzarətsizlik və nizamsızlıq hökm sürür. Ortalıqda bir hadisə və ya proses haqda tam antipod xəbərlər dolaşır- bir tərəfdə məsələ başqa cür verilir, digər tərəfdə başqa cür. Beləliklə, oxucu, tamaşaçı, dinləyici auditoriyası çaş-baş qalır- hansının doğru olduğunu təyin edə bilmir.

İnternet medianın inkişafı və bu sahədə ictimai və dövlət nəzarətinin zəif olması çox ciddi problemlər yaradır. Biz bunu müxtəlif vaxtlarda və kritik situyasiyalarda dəfələrlə görürük. Belə vəziyyətlərdə dezinformasiyalar, qərəzli, böhtan xarakterli materiallar çoxalır.

Bu şəraitdən xalqımıza və ölkəmizə zərər vurmaq istəyən xarici və daxili qüvvələr necə lazımdır bəhrələnir. Hətta reket jurnalistlər bu sosial media məkanında qanunsuz biznes qururlar. Bir sira xarici dairələr isə bu sosial media məkanında zərərli təbliğat aparır, dezinformasiya yayır, təxribat təşkil edirlər. Lakin adi izləyicilər onların funksiyasını və məqsədlərini bilmirlər və onları media hesab edirlər.

Getdikcə internet məkanında bu "media"nın üstünlüyü ələ alması peşəkar medianı kölgədə qoyur. Üstəlik, indi hamı bir növ jurnalist olub- hərənin əlində kamera və diktofona malik internetə bağlı smartfon var- istənilən hadisəni dərhal çəkib şəbəkəyə yerləşdirirlər və peşəkar media tərpənənədək əhali bu xəbəri oxuyur və ya baxır. Lakin bu xəbərin obyektivliyi, düzgünlüyü əksər hallarda şübhəli olur. Peşəkar media isə dəqiqləşməmiş məlumatı yaymır. Onun üçün obyektivlik həmişə operativlikdən üstündür.

Klasssik medianın fəaliyyət sferası yalnız xəbərdən ibarət deyil. Onun 3 funksiyası var- insanları maarifləndirmək, məlumatlandırmaq, mədəni istirahətini təmin etmək. Bunlardan ən vacibi isə maarifləndirmədir. Bundan əlavə, həqiqi medianın sosial və hüquqi məsuliyyəti var, etik peşə kodeksləri var.

Yeni yaranmış saxta medianın maarifləndirmə funksiyası yoxdur. Sosial və hüquqi məsuliyyəti yoxdur, etik prinsiplərə, jurnalistlərin peşə kodekslərinə riayət etmir. Üstəlik, onların kadr heyəti klassik mediada olduğu kimi peşəkar və intellektual kadrlardan ibarət deyil.

Bu "media"nın yalnız bir məqsədi var: şoular, hay-küylü xəbərlər yayıb izləyici və pul qazanmaq. Xəbər mətbuatın yalnız bir janrı, bir tərəfidir. O da qərəzli olmamaq, obyektiv və doğru olmaq şərtilə.

Mediada xəbərlərlə yanaşı, analitik yazılar, araşdırmalar, reportajlar, müsahibələr hazırlayır, müxtəlif problemləri işıqlandırır. Pamflet, felyeton, esse, oçerk, parodiya kimi publisistik yazılara az da olsa rast gəlinir. Maarifləndirici, ifşaedici karikaturalardan istifadə də nadir də olsa tətbiq olunur. Saxta medianın isə bunlardan anlayışı belə yoxdur. Bu "media"nın mənsubları jurnalistika sahəsinə aid deyillər.

Təəssüf ki, kütlənin çox hissəsi saxta medianı peşəkar mediadan ayıra bilmir və onların auditoriyasına çevrilir. Bu isə klassik medianın cəmiyyətə təsir imkanlarını azaldır. Nəticədə informasiya məkanı çirklənir, əhalidə səhv ictimai rəy yaratmaq, saxta məlumatlarla hər cür təxribatlar təşkil eləmək mümkün olur.

Ona görə də, peşəkar medianın sıradan çıxmaması, nüfuz və təsirini saxlaması üçün ciddi işlərə başlamaq vaxtıdır. Burada həm dövlətin, həm də cəmiyyətin rolu vacibdir. Klassik media öz problemlərini öyrənməli, müzakirə etməli və həlli üçün çalışmalıdır.

Dövlət isə, bu sahədə tənzimləmə və nəzarət funksiyasını gücləndirməlidir. Bu istiqamətdə son illərdə xeyli işlər görülüb. Bu işin başında da müvafiq dövlət orqanı olan MEDİA dayanır, bundan başqa qeyri-hökumət təşkilatı olan Mətbuat Şurası, həmçinin digər jurnalist təşkilatları, media orqanlarının özü prosesdə fəal iştirak edir.

İlk növbədə klassik medianın çatışmazlıqlarını bilməliyik. Əvvəla, biz hər zaman dünya standartları, peşəkarlıq və sairə məsələləri müzakirə edirik, özümüzü bu prinsiplərə uyğunlaşdırmaq istəyirik. Amma bunu real planda tətbiq edə bilmirik. Bu halda qlobal media məkanına çıxmaq mümkün deyil.




Bir çox media resurslarında sosial problemlərə, elmi intellektual materiallara çox az yer verilir, onun əvəzinə şou xarakterli materiallar çox işlənilir. Hesab edilir ki, belə materiallar daha çox oxucu, tamaşaçı, dinləyici gətirir. Halbuki, maraqlı təhlillər, elmi məqalələr, sosial araşdırmalar ortaya qoyulmalıdır ki, daimi oxucu kütləsina sahib olsun.

Azərbaycan mediası həm də informasiya müharibəsi aparır. Dünya arenasına çıxmaq, Azərbaycan həqiqətlərini çatdırmaq üçün çoxsaylı peşəkar işçi qüvvəsi olan peşəkar media qruplar- tərkibində saytlar, qəzetlər, informasiya agentlikləri olan resurslar lazımdır. Yüzlərlə zəif, kiçik saytlardansa, iri media qrupları formalaşarsa, artıq informasiya məkanının mütəşəkkilliyi və effektivliyi daha yüksək səviyyədə olar. Bu təmərküzləşmə prosesinə əsasən, bir neçə media orqanı birləşərək, böyük media holdinqləri formalaşmalıdır. Kiçik saytların işçi qüvvəsi saxlaya bilməməsi və ya 1-2 nəfərlə ortaya ciddi media qoyması mümkün deyil. Onun xaricdə və ölkənin regionlarında müxbir postları yoxdur. Bu kimi çatışmazlıqlarla biz dünya mediasına çıxa bilmərik.

Media kütlələrə psixoloji təsir silahıdır. Bu silah bizim (yəni, dövlətin, cəmiyyətin) əlində olmalıdır. İnsanlar media orqanlarında dolğun, ciddi, obyektiv məlumat ala bilməyəndə artıq sosial şəbəkələrə üz tuturlar. Hadisənin əslini, reallığı sosial şəbəkələrdə axtarırlar. Nəticədə ölkə mediası ictimaiyyətə təsir funksiyasını itirir.

Bu məsələnin müəyyən edilmiş mexanizmi olmalıdır. Qızıl ortanı tutmaq lazımdır. Senzura olmur, mətbuata tam azadlıq verilir və digər tərəfdən qanunsuzluq meyllərinin qarşısı alınır. İnsanların bir-birini təhqir etməsi, şər-böhtan atması, təxribat xarakterli məlumatların yayılması məsələlərinə ciddi nəzarət edilməlidir.

Bütün bu məsələlər kompleks şəklində həll edilməlidir. Məsələnin bir tərəfini həll edib, digər tərəfini boş buraxdıqda bu problemlər ortadan qalxmayacaq. Elə bir şərait yaradılmalıdır ki, həm dövlətin çatdırmaq istədiyi məlumatlar böyük kütlələrə, həm də ortaya qoyulan sosial problemlər dövlətə çata bilsin. Vətəndaşlar mediaya inansın, onu dinləsin, oxusun, izləsin. Yalnız bu halda media dövlət və cəmiyyət arasında koordinasiya funksiyasını yerinə yetirə bilər.

Əsas problemlərdən biri də, peşəkar kadrların saxlanmasıdır. Mediada əməkhaqqı yüksək olmadığından peşəkarlar çox vaxt başqa sahələrə gedirlər və onların yerini ucuz işçi qüvvəsi olaraq diletantlar tutur. Buna görə də ilk vaxtlarda media orqanlarına maliyyə yardımı lazımdır. Hər hansı bir media özünü tam doğruldanadək ona edilən yardımlarla peşəkarları ətrafına toplamalı və onları əlində saxlamağı bacarmalıdır. Peşəkarlıqdan kənar, intellektual bazası olmayan ucuz işçi qüvvəsinin toplanması mediada özünü doğrultmayan, yanlış və effektsiz materialların yayımlanmasına səbəb olur. Bilik və dünyagörüşü zəif olan, müəyyən təcrübə bazası olmayan jurnalistin və onun işlədiyi media resursunun intellektual auditoriya tərəfindən qəbul edilməsi mümkün deyil.

Problemləri ümumiləşdirsək, mənzərə belədir- hazırda mediamız özünü maliyyələşdirə bilmir, maddi-texniki təminatı, peşəkar kadr bazası zəifdir. Bu tip media ictimaiyyət arasında nüfuz qazana bilməz, ancaq şou auditoriya toplaya bilər. Bu baxımdan son zamanlar Medianın İnkişafı Agentliyinin bu sahədə həyata keçirdiyi tədbirlər təqdirəlayiqdir. MEDİA jurnalistlər üçün mütamadi təlimlər, təkmilləşmə kursları təşkil edir, media orqanlarının layihələrini maliyyələşdirir, onların bir çoxuna maddi yardımlar edir ki, mediamız güclənsin. Artıq son illərdə aparılmış işlər bu sahədə müsbət tendensiyaların əsasını qoyub və xeyli dəyişiklik baş verib. Bu işlər davam etdirildikdə, tezliklə media sahəsində sağlam və təhlükəsiz mühitin yarandığını görə bilərik.

Media haqda Qanun da bu istiqamətdə fundamentlan islahatların aparılması məqsədilə qəbul olunub. Dövlət peşəkar medianı "sosial" mediadan ayırmaqla onun daha üstün olduğunu cəmiyyətə göstərir. Media subyektlərinin və jurnalistlərin vahid reyestrinin yaradılması da buna xidmət edir. Jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması, onların peşəkar iş mühitində çalışması və əmək hüquqlarının qorunması, media subyektlərinin zamanla ayaqlaşa bilməsi üçün maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində MEDİA tərəfindən aparılan işlər təqdirəlayiqdir. Şübhə yoxdur ki, aparılan bu islahatlar media sahəsində vəziyyəti sağlamlaşdıracaq, Azərbaycan mediasının dünya media məkanına inteqrasiyası üçün lazımi şərait yaradacaq.

Azərbaycan mediası 150 ildir ki, bir müharibə aparır- cəhalətə qarşı, bütün mənfiliklərə, nöqsanlara, ictimai-siyasi, sosial-iqtisadi məsələlərdə mövcud problemlərə qarşı ağır və əbədi bir müharibə. Xalqımızın maariflənməsi, mənəviyyatın təbliği, ölkəmizin inkişafı, dünya məkanında öz layiqli yerini tutması uğrunda aparılan müharibə. Və Azərbaycan mediası bu günədək bu müqəddəs müharibədə qalibdir. Əbədi davam edəcək bu müharibədə daim qalib olmaq üçün hər birimiz var gücümüzlə çalışmalıyıq. 150 yaşın mübarək Azərbaycan mediası!

SON SƏHİFƏ

SƏS

19 iyul
2025-ci il

# "Ailə qurmaq və övlad sahibi olmaq bir çoxları üçün..."



***"Müasir dövrdə bir çox ailələrin övlad sahibi olmaq qərarını təxirə salması və ya bu fikirdən tamamilə imtina etməsi artıq geniş yayılmış sosial tendensiyalardan birinə çevrilmişdir. Bu hal bir sıra iqtisadi, psixoloji və sosial amillərlə əlaqələndirilir". Bu sözləri SİA-ya açıqlamasında sosial məsələlər üzrə ekspert Fatimə Hacıbəyli deyib. Fatimə Hacıbəyli sözlərinə belə davam edib: "İlk növbədə iqtisadi çətinliklər diqqətəlayiq səbəblər sırasındadır.***

Uşaq böyütmək böyük maliyyə vəsaiti tələb edir. Gündəlik yaşam xərclərinin artması, kirayə və ipoteka öhdəlikləri, təhsil və səhiyyə xidmətlərinin bahalılığı ailələrin bu məsuliyyəti üzərinə götürməsinə mane olur.

Karyera prioritetləri və urbanizasiya da bu qərarı təsir edən amillərdəndir. Xüsusilə şəhər mühitində yaşayan gənc ailələr üçün iş və karyera qurmaq əsas məqsədə çevrilib. Bu isə ailə planlamasının ikinci plana keçməsinə səbəb olur. Eyni zamanda qadınlar arasında "karyera və analıq" dilemması da tez-tez qarşılaşılan bir vəziyyətdir.

Psixoloji və emosional səbəblər də önəmlidir. Valideynlik məsuliyyətinin ağırlığı, özünə inamsızlıq, münasibətlərin qeyri-sabitliyi, ailədaxili anlaşılmazlıqlar və gələcək barədə qeyri-müəyyənlik insanlar arasında narahatlıq doğurur. Bununla yanaşı, dəyərlərin və həyat tərzinin dəyişməsi də nəzərəçarpacaqdır. Artıq bir çox insan azad həyat tərzinə üstünlük verir, şəxsi inkişaf və rahatlıq ön planda tutulur. Ailə qurmaq və övlad sahibi olmaq bir çoxları üçün əvvəlki qədər prioritet hesab edilmir.

Nəticə olaraq, ailələrin övlad sahibi olmaqdan çəkinməsi yalnız şəxsi seçimlərlə deyil, eyni zamanda cəmiyyətin sosial-iqtisadi reallıqları ilə sıx bağlıdır. Bu məsələ kompleks şəkildə araşdırılmalı və ailələri dəstəkləyən sosial mexanizmlərin gücləndirilməsi ilə həll yolları axtarılmalıdır".

***Ayşən Vəli***

# Masallıda qonaq ev sahibinin qızıllarını oğurlayıb

Masallıda qonaq evi qarət edilib. SİA-nın məlumatına görə, hadisə rayon ərazisində yerləşən evlərin birində baş verib. Belə ki, polisə evdən 12 min manat dəyərində qızıl-zinət əşyaları və içərisindən 710 manat olan bank kartının oğurlanması barədə məlumat daxil olub. Aparılan araşdırmalarla oğurluq hadisəsinin həmin evdə qonaq olmuş şəxs tərəfindən törədilməsi müəyyən edilib.

Masallı Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli tərətməkdə şübhəli bilinən 21 yaşlı Fərman Babayev saxlanılıb. Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

***Ayşən Sadıxzadə***



"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Bakıdan Naxçıvana avtobus reysləri yenidən bərpa olunur

***Bakı-Naxçıvan-Bakı avtobus reyslərinin fəaliyyəti bərpa olunur. Bu barədə Azərbaycan Yerüstü Nəqliyyyat Agentliyi məlumat yayıb.***




Bildirilir ki, iyulun 19-dan Bakı-Naxçıvan, iyulun 20-dən isə Naxçıvan-Bakı reysləri sərnişinlərə əvvəlki qrafikə uyğun olaraq xidmət göstərəcək. İran İslam Respublikasının ərazisindən keçməklə reallaşan Bakı-Naxçıvan-Bakı avtobus reysləri fəaliyyətini bərpa edir.

Qeyd edək ki, Yaxın Şərqdə baş verən hadisələrlə əlaqədar təhlükəsizlik məqsədilə iyunun 13-dən sözügedən reyslər fəaliyyətini dayandırmışdır.

# 12 milyon manatlıq əmlakların üzərinə həbs qoyulub

Bu ilin altı ayı ərzində istintaqı başa çatdırılmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 23 milyon 512 min 325 manat məbləğində maddi ziyandan 5 milyon 634 min 673 manatının ödənilməsi təmin olunub. S A xəbər verir ki, bu barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində əməliyyat müşavirəsində bildirilib.

Qeyd olunub ki, zərərin ödənilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 12 milyon 2 min 365 manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunmuşdur.



***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**